# VƏHHABİ ƏQİDƏSİNƏ ƏQLİ BİR BAXIŞ

## BEŞİNCİ CİLD

## QƏBİR ÜSTÜNDƏ ÇIRAĞIN YANDIRILMASI
## NƏZR ETMƏK VƏ ALLAHDAN QEYRİSİNƏ AND İÇMƏK

MÜƏLLİF: USTAD ŞEYX NƏCMÜDDİN TƏBƏSİ

TƏRCÜMƏ EDƏN:
SAMİT BAĞIROV

# QƏBİR ÜSTÜNDƏ ÇIRAĞIN YANDIRILMASI

## NƏZR ETMƏK VƏ ALLAHDAN QEYRİSİNƏ AND İÇMƏK.

Bayram və mövludların keçirilməsi və təzimi.

Əzadarlıq məclislərinin bərpa edilməsi qohum-əqraba və əzizlərin firaqına ağlamaq.

# QƏBİR ÜSTÜNDƏ ÇIRAĞIN YANDIRILMASI

1. Vəhhabiyətin nəzəri
2. Onların iddasına qarşı bir rəddiyyə.
3. Müsəlmanların həyat tərzi
4. Qəbir üzərində çırağın yandırılmasına qadağa qoyan rəvayətlərin nəqdi və iradı.

# QƏBİR ÜSTÜNDƏ ÇIRAĞIN YANDIRILMASI

Vəhhabilər qəbrin üzərində çırağın yandırılmasına mane olmuş və onun subut və dəlilini öncədən zikr olunan rəvayətlər bilmişlər. Halbuki, o rəvayətlərin mətn və sənəd iradları bəyan olmuşdur. O rəvayət budur: "Allahın rəsulu, qəbirlərin ziyarətinə gedən qadınları və qəbirlərin üzərində məscid inşa edənləri, həmçinin qəbr üzərində çıraq yandıranları lənətləmişdir[1].

Cavablar:

Birinci: Bu hədis sənəd baxımından zəifdir. Belə ki, ona işarə olunacaq.

İkinci: Peyğəmbərin (s) lənətləməsi, bu əməlləri peyğəmbər və ovliyalardan qeyrisinin qəbri üstündə əncam verənlərə şamildir. Amma əgər qadınlar peyğəmbər və ovliyalar qəbirlərinin ziyarətinə getsələr və yaxud onların qəbirlərinin üstündə məscid inşa edilsə və çıraq yandırılsa Peyğəmbərin (s) lənəti onlara şamil olmaz. Çünki peyğəmbər və ovliyaların təzimi istər diri istərsə də ölü halında şəriət tərəfindən müsbət bir iş kimi qələmə verilir.

Üçüncü: Bu rəvayət və hədis qəbirlərin üzərində çırağın yandırılaraq heç bir fayda və xeyrin əldə edilməyən halına aiddir. O cümlədən əgər bu arada bir mal zay olarsa, Peyğəmbərin (s) nəhy və lənəti buna əsasəndir.

Amma qəbirlərin üzərində çırağın yandırılması, namaz, dua və quranın oxumağı üçün olarsa və yaxud gecəni orada gecələyən və zairlər onun işığından bəhrə alarlarsa, bu zaman nəinki haram

---

[1] "Sünənun-nisa, c.4, səh. 95; "Müstədrəki-Hakim", c. 1, səh. 530.

deyil, bəlkə məkruh da deyil və bu əməl yaxşı işlərə köməyin fərdlərindən sayılır[1].

Bu cavaba sənədi, Şeyx Hənəfi, Əli Mənsur kimi alimlər işarə etmişlər ki, onların nəzər və baxışları geniş formada gələcək.

Qəbrlər üzərində çırağın yandırılmasının icazəli olmasına dəlalət edən nöqtələrdən biri də Peyğəmbərin (s) öz əməlidir. Tirmizi İbnAbbasdan rəvayət nəql edərək deyir: "Peyğəmbər (s) gecə bir qəbrin yanına getdi. Sonra o həzrət qəbrin üzərində bir çıraq yandırdı[2].

Dördüncü: Müsəlmanların həyat tərzi vəhhabi baxışlarının tam əksinədir. Çünki İbn Teymiyyənin doğumundan istər öncə istərsə də sonra müsəlmanlar qəbirlər və məqbərələr üzərində çıraq yandırırdılar. Onların bu növ həyat tərzi möhkəm bir dəlildir.

Müsəlmanların həyat təzlərindən nümunələr.

1. Ənsardan olan Əbu Əyyub adlı səhabənin qəbri üzərində şamdanların qoyulması. Xətib Bağdadi Vəliddən nəql edərək deyir: Fələstin əhlindən bir qoca kişi mənim üçün belə bəyan etdi ki, İstanbul şəhərinin divarının aşağı tərəfində bir tikinti var idi və xalq onun haqqında belə deyirdi: Bu qəbr İslam Peyğəmbərini (s) səhabəsi Əbu əyyub ənsarinindir. Bu zaman məndə o tikintiyə tərəf gedərək qəbrini tiklişi haqda grdüm. Onun qəbrinin üzərində bir zəncirlənmiş şamdan[3]

---

[1] "Maidə" surəsinin 2-ci ayəsinə işarə olaraq: Təqva və yaxşı işə kömək və yar olun, günah və ədavətə köməkçi olmayın.

[2] "Camius-səhih", c. 3, səh. 372, 62-ci fəsl.

[3] Ərəb dilində olan "Qəndil" "قنديل" kəlməsi şam yandırılan zaman istifadə olunan şamdana deyilir və rəvayətlərin birində belə gəlmişdir. Bir nəfər önündə şamdan ikən namaz qılırdı "الرجل يصل وبين يديه قنديل" "Məcməul-bəyan", c. 5, səh. 456.

var idi[1].

Xətib Bağdadinin vəfatı hicri qəməri tarixinin 463-cü ilində olmuş halbuki, İbn Teymiyyənin vəfatı 8-ci əsrdə baş vermişdir və bu iki tarix arasında olan zaman fasiləsi təqribən üç yüz ilə çatır. Bu sirə və təriqət, İbn Teymiyyədən öncə olmuş və heç bir müsəlman fəqihi onun haram olmasına fətva verməmişdir və həmçinin heç bir kəs onu şirk və bidət ünvanında qələmə verməmişdir.

2. Zubeyrin qəbrinin üstünə şamdanların aparılması: İbn Cövzi deyir: 386 hicri qəməri ayının mühüm hadisələrindən biri də Bəsrə əhlinin iddasıdır ki, Zübeyr ibn Əvamın qəbrini tapmışlar. Bunun üçün onun qəbrinə bir sıra şamdanlar həsirlər xalçalar apararaq, o məkanın mühafizəsi üçün daimi bir xadim tutaraq oraya vəqf etilər[2].

Zübeyrin qəbrinin tapılması və o məkanda şamdanların qoyulması dördüncə əsrdə olmuşdur yəni İbn Teymiyyənin dünyaya gəlməsindən dörd əsr öncə və İbn Teymiyyədən öncə bir fəqihin Zübeyrin qəbri üstünə şamdanların aparılamsının haramlığına verdiyi fətvanı heç kəs yada sala bilməz və həmçinin o şamdanların Zübeyr və qeyrilərinin qəbirlərinin üzərində yandırılması.

3. İmam Musa Kazımın (ə) qəbri üzərində bir sıra şamdanların olması: Xətib deyir: İmam Musa Kazım (ə) məşhur və ziyarət məkanıdır. Onun qəbrinin üzərində əzəmətli bir qübbə tikilmiş və orada qızıl və gümüşdən olan şamdanlar və həmçinin müztəlif əşyalar və xalçalar mövcuddur[3].

Hədisdə mövcud münaqişə:

Bu hədisdə həm məna və həm sənəd baxımından münaqişələr mövcuddur.

---

[1] "Tarixi Bağdad", c. 1, səh. 16

[2] "Əlmüntəzəm", c. 14, səh. 383.

[3] "Vəfəyatul-əyan", c. 5, səh. 310

1. Sənədi iradlar.

Hakim Müstədrək kitabında bu hədisi iki sənədlə (halbu ki hər iki sənəd İbn Abbasa yetir) nəql etmişdir. Lakin bu sənədlərin hər ikisində Əbu Saleh adlı şəxs mövcuddur. Bu iki sənədlərdə Əbu Salehin adı "Bazam" olaraq rical alimləri tərəfindən təzif olunmuşdur. Əssəman adlı başqa bir şəxs də mövcuddur ki, kunyə və ləqəbi Əbu Salehdir. O döğru və siqə bir şəxs olaraq hədislərinə istinad olunur. Amma o, bu hədisdə qərar tutmamışdır. Əbu Hatəm, Əbu Saleh Bazam haqqında dyir: Onun hədisi yazılır amma onunla istidlal olunmur. Nəsayi deyir: Əbu Saleh Bazam döğru və siqə bir şəxs deyil.

İbn Ödəy deyir: Əbu Saleh Bazamın rəvayət etdiklərinin hamısı onun şəxsi təfsiri və rəyidir və müsnəddə azacıq da olsa belə ondan bir şey yoxdur və ondan razı olan keçmiş alimlərdən kimsəni tanımıram[1]. Bu hədisdə daha iki sənəd mövcuddur ki, inşallah biz ona "Qadınların qəbrləri ziyarət etməsi" bəhsində işarə edəcəyik.

2. Məna və dəlalət baxımından:

1. Əzizi, Peyğəmbərin (s) "والسرج" sözünün şərhində deyir: Peyğəmbərin (s) lənətləməsi qəbr üzərində çıraq yandıraraq və diri halında olan insanlara fayda yetirmədiyi hala şamil olunur və əgər çıraq yandıraraq kimlərsə ondan faydalanarsa onda heç bir eyb və iradı yoxdur[2].

2. Sənədi "Sünəni Nisai"-nin haşiyəsində deyir: Peyğəmbərin (s) lənət etməsi bir malın ondan istifadə olunmaqla onun aradan getməsi səbəbinə əsasəndir və onun məfhumu budur ki, əgər çırağın

[1] "Əl-Kamil fiz-züəfa", c. 2, səh. 71; "Müstədrəki Hakim", səh. 530.

[2] "Şərhul- Cameus-səğir", c. 3, səh. 198.

yandırılmasından bir sıra şəxslər bəhrə aparacaqlarsa bu zaman heç bir eybi yoxdur[1].

3. Şeyx Hənəfi "Camius-səhih" kitabının haşyəsində deyir: Övliyalar və başqalarının qəbirləri üzərində şamdanların yandırılıb istifadəsi, bir şəxsin ondan bəhrələnmədiyi təqdirdə haram bir işdir. Çünki bu əməllə bir maı şəri qərəz olmadan aradan gedir[2].

4. Şeyx Əli Nasif deyir: Qəbirlərin üzərində çırağın yandırılması icazəli deyil. Çünki bu əməllə bir mal hədər olur. Yalnz ondan istifadə olunan halda bu zaman çırağın yandırılması icazəli olacaq[3].

Buna əsasən hədisdə gələn, bir irşadi hökümdür. Mövləvi hüküm deyil və bir malın səbəbsiz aradan aparılmaması mətləbinə işarə edir. Bunu üçün əgər qəbirlər üzərində çırağbanlıqın aqilanə bir mənfəəti olarsa, hədis heçdə ona şamil olmur və qəti olaraq belə bir əməl icazəlidir. Bundan əlavə hədisdəki mövcud olan lənət heç də haramlığı iradə etmir. Bəlkə bəzi vaxtlar lənətdən məkruhiyyət anlaşılır[4].

Hər halda, qəbirlər üzərində çırağ yandırılmasının haramlığına dəlalət edən rəvayət etibarlı deyil və ona istinad olunmur və mərdud sayılır.

---

[1] "Sünəni-Nisai", c. 4, səh. 198.

[2] "Kəşful-irtiyab", səh. 339.

[3] "Əttacul-Came lil-usul", c. 1, səh. 381.

[4] Əlbəttdə, demək olar ki, hədislərəd mövcud olan lənət kəlməsindən məkruhiyyət başa düşmək çətin və zəif işdir. Çünki lənət kəlməsindən haramlığı anlamaq nəhy və inkar fellərindən dahada güclüdür və lənət kəlməsindən haramlıq yox, məkruhiyyətin anlayışı bir sıra möhkəm qərinə və subutlara ehtiyacı varıdır.

## NƏZR ETMƏK

1. Allahdan qeyrisinə nəzr verilməsi haqda vəhhabilərin nəzəri
2. Vəhhabilərin nəzər və baxışlarının tənqidi
3. Allahdan qeyrisinə nəzr verilməsini icazəli bilən rəvayətlər
4. Nəzr verilməsində müsəlmanların həyat tərzi
5. Allahdan qeyrisinə nəzr vermək barədə alimlərin fətvaları

## Allahdan qeyrisinə nəzr vermək

Vəhhabilər Allahdan qeyrisinə nəzr verilməyin haram olması əqidəsindədirlər. Çünki bu əməl müşriklərin bütlər üçün nəzr etdikləri əmələ daha çox oxşayır. Əsasən Allahdan qeyrisinə nəzr vermək, nəzr verən şəxsin nəzr verilən şəxsə xüsusi etiqad və təzim baxımından haram bir işdir.

1. Quseymi deyir: Allahdan qeyrisinə nəzr vermək şiə nişanələrindəndir. Çünki onlar Əli (ə) və onun övladlarının ilahi və məbud olmaları əqidələrindədirlər[1].

2. İbn Teymiyyə deyir: Alimlərin fikrincə dirhəm, şam, zinət əşyaları və heyvanları qəbrə və onun qonşuluğunda olan şəxslərə nəzr vermək icazəli deyildir. Çünki belə bir nəzr günahdır və səhih bir hədisdə belə gəlmişdir: Hər kəs nəzr edib Allaha itaət etmək istərsə gərək itaət etsin və hər kəs nəzr etsə ki, Allah muqabilində günah etsin bəs onda Allah müqabilində günah etməməlidir[2].

Həmçinin deyir: Ölülərdən bir şeyin (hacətin) istənilməsi (hətta Peyğəmbər (s) də olsa belə) şirk etmə qorxusu səbəbindən qadağan edilmişdir. Bəs qəbirlər və onların sakinlərinə olunan nəzr haram və batildir. Bu iş, bütlərə nəzr edən müşriklərin əməllərinə oxşayır. Qəbirlərə nəzr etməyin hər

---

[1] "Əl-Qədir", c. 5, səh. 180; "Əssəra", c. 1, səh. 45. Əssəra kitabının müəllifi Abdullah Quseymidir. O, öz kitablarında şiə məzhəbi əleyhinə bir sıra cəsarətlər etmiş ki, heç də bir elm və fəzilət iddiasıçına yaraşmır. Bu şəxs o qədər kinəlidir ki, öz kitabının adını "İslam və bütpərəstlik arasında savaş" qoymuş və şiələri bütpərəst adlandırmışdır. (Allah bizə, onlar və yəhudilərin şərrindən pənah versin

[2] "Kəşful-irtiyab", səh. 283, digər çaplarda – 355. O, öz sözlərinin davamında deyir: Nəzr edən insana, and içmə və kəffarəsinin vacib olması haqda iki nəzər vardır.

hansı bir savaba və ya faydaya malik olduğuna inanan bir şəxs yolunu azmış və nadan bir insandır[1].

### Vəhhabilərin nəzər-nöqtəsinin tənqidi

Birinci cavab: Bu nəzrdən hədəf, nəzr verən şəxsin bir sədəqəni nəzr edərək, onun savabını saleh insana, Allah övliyasına və Peyğəmbərə (s) qurban edir. və bu əməllə saleh və Allahın vəli və dostu olan insana yaxınlaşmaq deyil, bəlkə onun məqsədi Allaha yaxınlaşmaqdır. Əgər nəzr şəxs edən şəxs bir şeyi nəzr etdikdə bilir li, bu şəxslər bu əşyaları yeyib, içib, geyinib, xərcləməyə qadir deyillər. Belə bir şəxsin məqsədi necə saleh insana Allaha vəlisinə və peyğəmbərə yaxınlaşmaq ola bilər. Çünki onlar ölüblər və dünyəvi işləri bacarmırlar. Bunun üçün gərək vəhhabi alimləri qeyri elmi fətvaları ilə müsəlmanlara hücum etməyərək onları küfrlə ittiham etməsinlər. Bəlkə onların əməllərini döğruluqla cilvələndirib və imkan miqdarında onlara hücum etməkdən çəkinsinlər[2].

İkinci cavab: Bu nəzr ata və anaya nəzr edən şəxsin əməlinə bənzəyir. Bu zaman and içirək və ya özü ilə əhd-peyman bağlayaraq onlar üçün sədəqə verir. Bir rəvayətdə belə bir əhdə vəfa etmək vacib vacib bilinir. Belə ki, bir heyvanını xüsusi bir yerdə kəsilməsini atası üçün nəzr edən qıza Peyğəmbər (s) buyurdu: Öz nəzrinə əml et. Amma nəzr edən şəxsin öz nəzrini yalnız bir məkana məhdud etməsi, o məkanı ehtiram və şərafətli mənasında bilir. Bu

---

[1] "Miləl və Nihəl", səh. 291.

[2] Nəhcül-Bəlağə şərhçisi Məhəmməd Əbduh özünün "İsalm və Nəsraniyyət" kitabında deyir: İslam dininin hökümlərinin əsaslarından biri budur ki, bir insanı dərhal küfrə ittiham etmək olmaz. İslamda bəyan olunan budur ki, əgər bir şəxs küfrü ehtimal edilən bir söz deyərsə o, şəxsin küfürlə ittiham olmaması üçün onun sözünü yüz mənaya daşımalıyıq və başa düşməliyik və əgər İslama ehtimal verilən bir söz deyərsə o sözü yalnız onun mömin olmaqıyla cilvələndirib başa düşməliyik.

zaman öz nəzrinə (ki ibadi bir işdir) əməl etməklə məqsədi bu əməlin savabının bir neçə qat olması üçündür. Bundan əlavə bir sıra zamanları ibadətlər üçün nəzərdə tutmağın heç bir heç bir eyb və iradı yoxdur və hətta rəvayətlər onu təyid edtmişlər:

1.Sabit ibn Zəhhak nəql edir: Bir kişi buvanə təpəsində bir dəvəni kəsməyi nəzr etdi. Peyğəmbərin (s) hüzuruna gələrək bu cəryandan xəbərdar etdi. O, həzrət buyurdu: Cahiliyyət dövründə orada pərəstiş etmək üçün büt var idi? Dedilər: Xeyr. Həzrət buyurdu öz nəzrinə əməl et. Çünki nəzr iki yerdə düz deyil. 1. Günah və itaətsizlik zamanı. 2. İnsanın malik olmadığı bir şey[1].

2. Meymunədən nəql olunmuşdur ki, onun atası Peyğəmbərə (s) dedi: Mən buvanə təpəsində əlli qoyunu kəsməyi nəzr etmişəm. O, həzrət buyurdu: Orada bütlər var? Məlum şəxs cavab verdi: Xeyr. Peyğəmbər (s) buyurdu: Öz nəzrinə vəfa et. Bunun üçün atam qırx doqquz qoyunu kəsərək başqa bir qoyun isə onun əlindən qaçdı. O qoyunun arxasıyca qaçaraq deyirdi. İlhai nəzrimə vəfa etməkdə mənə kömək ol! Və sürətlə o qoyunu tutaraq kəsdi[2].

Bəlkə bu hədis öncəki hədislərlə məna baxımından bir olsun. Amma bəzi ibarət və kəlmələrdə öndə olan hədislərdən fəqlidir. Peyğəmbərin (s) sualından məqsəd ki, həmən məkanda cahiliyyət dövründə pərəstiş etmək üçün büt olub ya yox və yaxud həmin məkanda bayram məqsədi ilə müəyyən bir toplantı olub ya yox – deməsi bunun üçündür ki, insanların cahiliyyət dövründən çox fasilə keçmədiyinə görə və həmin cahil adətlərələ ünsiyyət bağlamamaları üçündür ki, məbada öz nəzr və ehsanlarının həmin keçmiş adətlərinə əsasən nəzr etsinlər!.

---

[1] Sünəni Əbi Davud, c. 3, səh. 237
[2] Möcəmul Buldan, c. 2, səh. 30, c.1 səh. 505

Üçüncü cavab: Nəzrin mənası budur ki, əgər nəzr edənin hədəf və məqsədi yerinə yetərsə və hacəti qəbul olarsa bu zaman nəzr edən özünü müəyyən bir şeyi eəda etməyə mülzəm bilir və bunun üçün deyir: Əgər hacətim qəbul olarsa filan əməli yerinə yetirməyi Allah üçün nəzr edirəm və bu həmin şəri nəzrdir. Bu zaman əgər bir kəs deyərsə ki, mən mən filan kəs üçün nəzr edirəm. Bu bir növ məcazi bir cümlə ilə və istilahdır. Bu zaman belə bir şəxs "ixtisar" üçün belə nəzr etmişdir. Amma həqiqətdə belə deyir: Bu işi Allah üçün görərək savabının filan bir şəxsə çatmağını istəyirəm.

Sual: Müsəlman və müşriklərin əməllərinin bir-birinə oxşaması, müsəlmanların bir-birlərini kafirlikdə və müşriklikdə ittiham etməsinə icazə verirmi?

İbn Teymiyyənin təccüblü sözlərindən biri də budur: Belə bir formada nəzr edən müsəlmanlar təkfir olunur və onun səbəb və dəlilini müsəlmanların əməllərinin müşriklərin əməlləri ilə olan oxşarlığını bilmişdir.

Alimə qəzavət və hökүm miqyası və ölçüsü əməlin zahiri forması nəzərdə tutulursa, həcc əməlləri müşriklərin əməllərinə tamamilə oxşayır. Belə ki, müşriklər öz bütləri ətrafında fırlanırdılar və onlara pərəstiş edirdilər. Biz də "Kəbə" ətrafında təvaf edir və həcərül-əsvədi (qara daş) öpürük. Onlar "mina" günü qoyunlarını bütlərin adı ilə kəsirdilər və biz də həmin gündə qurbanlıq edirk... Belə bir halda bir-birinə oxşayan bu iki əməli bir mənada anlamaq rəvadırmı?

Bundan əlavə onuda demək lazımdır ki, qəzavət miqyası və səbəbi insanın batini və qəlbi niyyətidir nəinki zahiri oxşarlıq. Belə ki, İslamın əziz Peyğəmbəri (s) buyurur: "Əməllərin qiyməti niyyətlədir"[1]

---

[1] "Səhih-Buxari", c. 1, səh. 1

Şafei Əzami deyir: Əgər bir kəs müsəlmanların əmilsalehlərə və peyğəmbərlərə (ə) qurbanlıq etməsini və nəzrinin barəsində bir sıra tədqiqatlar apararsa bu nəticəyə çatar ki, bu işlərdən məqsəd, ölülərin ruhlarına bağışlanan savabdan və onların tərəfindən verilən sədəqədən başqa bir şey deyil. Əhli-sünnət icmasına əsasən diri insanların sədəqləri ölülərə yetişir. və onlar haqda faydalıdır. Bu haqda olan hədis və rəvayətlər səhih və məşhurdur. O cümlədən:

1. Səddən nəql olunan səhih bir rəvayətdə deyilir ki, o, həzrət Peyğəmbərdən (s) soruşdu: Ey Allahın elçisi! Anam dünyadan getdi. Əgər o qalsaydı sədəqə verərdi. Əgər mən onun tərəfindən sədəqə verərəmsə savabı ona da çatar ya yox? Peyğəmbər (s) buyurdu: Bəli. Bu zaman yenə də soruşdu: Ey Allahın elçisi! hansı sədəqə daha faydalı və mənfəətlidir? Həzrət buyurdu: "su" Səd bir quyu qazarq dedi: Bu quyu Sədin anası üçündür[1].

---

[1] "Furqanul-Quran", səh. 133. Ölülər və dünyasını dəyişənlərə yaxşılıq və ehsan etmək haqda bir çox rəvayətlər nəql olunmuşdur. O rəvayətlərə əsasən əgər insan öz dünyasını dəyişmiş ata və anası üçün və ya qohum və başqa vəfat etmişlər üçün bir əməli naib ünvanında onun əvəzində əncam versə, o əməlin savabı onlara çatar.

A. Peyğəmbərin (s) həyat yoldaşı Ayişədən nəql olunmuşdur: Bir kişi Peyğəmbərin (s) hüzuruna gələrək dedi: Anam dünyadan getmişdir. Amma vəsiyyət etməmişdir və mən belə fikirləşirəm ki, əgər söz deməyi bacarsaydı sədəqə verərdi. Əgər onun tərəfindən sədəqə verərəmsə onun üçün bir savab olar ya yox? Bəli (Səhih-Müslim, c. 5, səh. 73; Kəşful-İrtiyab, səh. 280

B. Bir qadın Allah rəsulinin hüzuruna gəlib dedi: Anam tərəfindən bir kəniz azad etdim. Peyğəmbər (s) buyurdu: Bu əməlin əcrinə çatacaqsan. Sonra o

İbn Teymiyyə və tərəfdarları açıq aşgar bir səhvə düçar olublar. Çünki onlar iddia edirlər əgər bir müsəlman belə deyirs " هذه الصدقة لا لنبى و للولى"

"Bu sədəqə peyğəmbər və onun vəsisi üçündür".deməli küfür demişdir. Çünki "لالنبى" və "للولى" kəlmələrində olan "lam" hərfi həmin " نذرت لله" cümləsində olan "lam" mənasındadır. İbn Teymiyyə bu anlayışı ilə ya özünü qəflətə vurmuş yada ki bu iki "lam" hərflərinin "لله" "لالنبى" fərqlərindən qafildir. Çünki "لله" kəlməsində olan "lam" hərfi əsasən məqsədi və hədəfi çatdıran və Allaha yaxınlaşmaq mənasındadır. Amma "لالنبى"və "للولى" kəlmələrində olan "lam" isə sədəqənin işlənmə və xərcləmə cəhətini və onun faydalandırma məkanını bildirir. Əzami deyir: هذ" "لأم سع"cümləsində olan "lam" hərfi sədəqənin xərclənmə səmtini və cəhətini müəyyənləşdirir. və "نذرت لله" cümləsində olan "lam" mənasında deyil. "لالنبى" və "للولى" kəlmələrində olan انما الصدقات" "للفقراء والمساكين ayəsində olan "lam" hərfi kimidir ki, sədəqənin xərclənmə cəhətini və məkanını bəyan edir.

---

qadın dedi: Anamın boynunda bir aylıq oruc var idi. Onun tərəfindən oruc tutum? Buyurdu: Oruc tut!. O qadın əlavə etdi: Anam həccə getməmişdi. Onun tərəfindən həcc yerinə yetirimmi? Peyğəmbər (s) buyurdu: Əncam ver! (Səhih Müslim, c. 3, səh. 155)

V. Əhməd ibn Hənbəl müsnəd kitabında, Əbu Davud Sünən kitabında, Tirmizi Cami kitabında nəql etmişlər. Peyğəmbər (s) öz əlləri ilə bir qoyunu kəsdi və buyurdu: İlahi bu qurbanlıq mənim və ümmətimdən qurban kəsməyən şəxslər tərəfindəndir.

## NƏZR ETMƏK HAQDA MÜSƏLMANLARIN HƏYAT TƏRZİ

Müsəlmanlar peyğəmbər və övliya üçün qurbanlıq və nəzr edirdilər. Bu iş onların arasında ümuni bir iş olaraq xüsusi bir məzhəbə və qurupa da aid deyildir. Belə ki, əgər nəzr edənin məqsəd və hədəfi Allaha yaxınlaşmaq olarsa və heyvan kəsən halda uca və əzəmətli Allahın adını yad edərsə öz əməlinin savabını görər.

Xalidi deyir: Əgər nəzr edən şəxs deyərsə ki, "Bu qurbanlığı filan peyğəmbər və Allah vəlisi üçün boyun aldım" bu mənadadır ki, bu əməlin savabı onlar üçündür və həqiqətdə kəsilən heyvan isə Allahın razılığı üçündür. Bu bəzi insanların dediklərinə bənzəyir ki, "Vəfat edənim üçün qurban kəsdim" Yəni vəfat edən şəxs tərəfindən sədəqə verdim və həmçinin belə deyir: Qonaq üçün bir qoyun kəsib və zibh etdim. Yənin heyvanın kəsilmə səbəbi qonaqdır[1].

Bir neçə nümunəyə nəzər salaq

1. Əlbəstinin qəbri: Bu şəxs Mərakeş əhlindən olan Əbül-Abbas Əlbəsti adı ilə tanınmış Əhməd ibn Cəfər Xəzrəcidir (vəfat 601. h.). Onun qəbri ziyarət məkanıdır və xalq sıx və isdihamla onun qəbrinin ziyarətinə yollanırlar. Təcrübələr göstərir ki, dualar orada müstəcab olur. Mən (xitab edən dəfələrlə onun qəbrinin ziyarətinə gedərək O qəbrin ziyarətinin bərəkətini bir dəfədə olsun belə təcrübə etmişəm. İbnul-Xətib Səlmani deyir:... Xalqın gündəlik Əlbəstinin qəbrinə gətirdikləri nəzrlər səkkiz yüz misqal xalis qızıldır. Bəzi günlərdə isə min dinara da çatır. Bütün bu vücuhat o diyarın fəqir, kasıb və ehtiyaclı insanları üçün xərclənir[2].

---

[1] "Sülhul-İxvan", səh. 109; "Əl-Qədir", c. 5, səh. 182

[2] "Nilul-İbtihac", c. 2, səh. 62; Əl-Qədir, c. 5, səh. 204

Nilul-İbtihac əsərinin müəllifi deyir: Bu əməl bugünki günə qədər davam edir və xalq onun qəbri ətrafında izihamla toplaşırlar və öz hacətlərinin yerinə yetirilməsini Allahdan istəyirlər. Mən beş yüz dəfədən çox o qəbrin ziyarətinə getmişəm və otuz dəfədən çox orada gecələyib o qəbrin bərəkətlərinin şahidi olmuşam[1].

2. Şeyx Əhməd ibn Əli Əlbədvinin qəbri: O 675-ci ildə vəfat edərək Təndəta[2] şəhərində dəfn olunmuşdur. Onun qəbri üzərində bir məkan və buqə düzəltdilər. Xalq arasında onun kəramətləri məşhurdur. Camaat onun üçün nəzr edirlər[3].

3. Ubeydullah ibn Məhəmməd ibn Ömərin qəbri: Bu şəxs İmam Əli ibn Əbu Talibin (ə) oğlu İmam Hüseyn (ə) oğlu İmam Səccadın oğludur. Bağdadi deyir: Babul-bərdanda fəzilət sahibi olan camaat vardır. Camaat orada bayram namzı qıldıqları müsəllanın kənarında nəzrlər qəbri adı ilə tanınmış bir qəbr vardır.

Belə deyilir: Orada dəfn olunan şəxs Əli ibn Əbu Talibin ovladlarındandır. Xalq onun qəbrini ziyarət etməklə ona təbərrük edirlər. Onlar məlum qəbrin kənarında hacətlərinin yerinə yetməsini uca və əzəmətli Allahdan istəyirlər.

Qazi əbül Qasim Tənuxi atasından nəql edərək deyir: Mən Əzdud-dövlə Deyləminin hüzurunda oturmuşdum. Bizim yaxınlığımızda camaatın orada bayram namazı qıldıqları bir müsəlla var idi. Məlum məkan "Şəhrus-səlam"ın şərq nahiyəsində yerləşirdi.Qoşunun çadır və xeymələrini quraraq

---

[1] Nilul-İbtihac, c. 2, səh. 62; Əl-Qədir, c. 5, səh. 204

[2] Ehtimal verilir bu şəhərin adı Tənbəzə olsun. Bu halda Misrin Bəhəsna bölgəsinin kəndlərinən biri olacaq. Afrika nahiyəsindən olması da istisna olunmur. (Möcəmul-Buldan, c. 4, səh. 364) Əlbəttə Tənta olması da ola bilər. Bu zaman Misirdə olan məşhur şəhər olacaq. (Şəzəratuz-zəhəb, c. 7, səh. 605)

[3] Əlməvahibud-dəniyyə, c. 5, səh. 364

qoşunun istirahətdəgahda yerləşdiyi günü Həmədana tərəf hərəkət etməyi istədik. Əzdüd-dövlə nəzrlər qəbrinin yerləşdiyi binaya göz gəzdirərək sonra mənə dedi: Bu bina nədir belə? Dedim: Nəzirlər qəbridir. Bu zaman filan bir şəxsin qəbri olduğunu demədim. Hər şeydən çox bunun pis mənada başa düşəcəyini bilirdim. Bunun üçün mənim sözümü yaxşı sanaraq dedi: Bunun nəzrlər qəbri olmasını bilirəm. Amma onun macara və sərgüzəştini bilmək istəyirəm. Bu ziyarətgah Übeydullah ibn Məhəmməd ibn Ömər ibn Əli (ə) ibn Hüseyn (ə) ibn Əli (ə) ibn Əbu Talibin qəbridir – deyə cavab verdim. Bəziləridə belə deyirlər: Bu Abdullah ibn Məhəmməd ibn Ömər ibn Əli (ə) ibn Əbu Talibin qəbridir. Xəlifələrdən bəziləri onun gizlincə öldürülməsi qəsdində idilər. Bunun üçün tələ ünvanında onun üçün bir dərə qazdıraraq onun üzərini örtdülər. Oradan keçərkən o dərəyə düşdü. Məlum dərəni torpaqla dolduraraq onu diri-diri basdırıb dəfn etdilər. O zaman bura nəzrlər qəbri adıyla məşhur oldu. Çünki onun üçün nəzərdə tutulan hər nəzr qəbul olur və nəzr edən də öz istəyinə çatır. Bu zaman nəzrə vəfa etmək nəzr edənə vacib sayılır. Məndə belə bir şəxslərdənəm. Dəfələrlə onun üçün etdiyim nəzrlər say və hesaba gəlmir. Hər bir nəzri ödəməklə istəyimə çatmışam. Buna əsasən nəzrə vəfa qılmaq mənə vacibdir.

Əzdud-dövlə mənim sözlərimi qəbul etməyib elə danışdı ki, güya nəzr vasitəsi ilə yerinə yetən işlər nadir və təsadüfi bir işdir. Avam və savadsız insanların ağzına düşdüyünə görə bütün bunları bir neşə artırmalar ilə bir-birlərinə nəql edirlər! Mən sakit qalaraq heçnə demədim. Biz hələ də həmin istirahətgahda idik. Bir neçə gündən sonra sübh vaxtı Əzdud-dövlə məni hüzuruna çağıraraq dedi: Öz miniyinə min nəzrlər ziyarətgahına gedək. Mən onun bir neçə mühafiz və cangüdənləri ilə birlikdə miniyimizə minərək o məkana getdik. Əzdud-dövlə

ziyarətgaha daxil olaraq qəbri ziyarət etdi. Onun kınarında iki rəkət namaz qıldı. Namazdan sonra səcdəyə gedərək muncat və duasını uzatdı. Amma mən nə dediyini eşitmirdim. Ondan sonra istirahətgaha qayıtdıq və bir neçə gün orada qaldıqdan sonra, Həmədana tərəf hərəkət etdik. Bir neçə ay o şəhərdə qaldıq. Mən hələ də Əzdüd-dövlə ilə bir yerdə idim. Bir neçə gün keçdikdən sonra Əzdud-dövlə məni çağıraraq dedi: Nəzrlər qəbri haqqında mənə dediklərini xatırlayırsanmı? Bəli – deyə mən cavab verdim. Yaxşı bir həmdəm olduğun üçün səninlə o barədə danışdım. Əlbəttə, nəzrlər qəbri haqda dediklərinə heçdə inamırdım. Həqiqətdə bütün bu sözlərin haməsənən yalandan başqa bir şey olmadığı ürəyimdən keçirdi. Amma bir müddətdən sonra bir iş yadıma düşərək məni vəhşətə saldı. Qorxdum, məbada iş-işdən keçərək o iş baş tutsun. O, işi aradan aparmaq üçün fikrə getdim.və problemin həlli üçün bütün evlər, əsgərlər və malları qurban etməyə hazır idim. Fikrimə isə bir şey çarpmırdı. Nəzrlər qəbri haqqında etdikləriin söhbətlərin yadıma düşərək özümlə dedim: Axı nə üçün bir dəfə də olsun onun təcrübə etməməliyəm və nəzr etdim ki Allah mənə bu işdə yar olarsa, nəzrlər qəbri sandığına min dirhəm verərəm.Bir müddətdən sonra o mühüm işin və problemin həllini göstərən xəbərlər mənə çatdı. Bu zaman məndə Əbülqasimə (katib) göstəriş verərək on min dirhəmin o ziyarətgaha aparılmasını Əbu Rəyyana (Əzdud-dövlənin Bağdadakı canişini) yazsın".

Bu zaman Əzdud-dövlə məclisdə ikən üzünü Əbdüləzizə tərəf tutdu. Əbdüləziz Əzdud-dövləyə dedi: Mən o məktubu yazdım və icra olundu[1].

Alimlərin fətvaları:

---

[1] Tarixi Bağdad, c. 1, səh. 123

1. Xalidi Əbu Davuddan bir hədis nəql etdikdən sonra deyir: Xəvaric bu hədisə söykənərək peyğəmbər və əməlisaleh insanların dəfn olunduqları məkana nəzr verilməsini icazəli bilmirlər. Onların etdikləri güman və zənnə əsasən onlar (qəbrlər) cahiliyyət dövrünün bayram və bütlərindəndir. Onların dedikləri çirkin və müşrikanə sözlərindən Allaha pənah aparırıq. Bu fikirlər xəvaricin zəlalətindən və din adı ilə şəriətə daxil etdikləri xurafatlardan irəli gəlir. Peyğəmbər (s) və Allah övliyalarını bir növ büt adlandırmaq isə o bpyük insanların müqəddəs şəninə olunan bir növ cəsarətdir. Onlar hədsiz ehtiramsızlıqla peyğəmbərləri təhqir edirlər. Amma əgər bir kəs xəvaricə iradla yanaşarsa (və hətta onun irad və nəqdi kinayə formasında olsa belə) onu təkfir edir (kafir adlandırır) və hətta bəzi vaxtlar tövbəsini də qəbul etməyərək mal, can və namusunu mubah və özləri üçün icazəli bilirlər. Xəvaric peyğəmbər və Allah övliyalarına olunan təvəssülü ibadət bilmişlər. Onların büt ünvanında tanıtmışlar və bu zaman xar və zəlil olmuşlar!.

Xəvaric kimisilərinin cahilanə fikirlərinə (ki əlbəttə onların zəlalətindən irəli gəlir) diqqət etmək heç də münasib deyil və Allah özü daha bilicidir[1]. İbn Teymiyyə və onun azdırıcı sözlərinə itaət edən şəxslərin fikirləri heç də bir əhəmiyyətə malik deyil[2].

2. Rafei "Təhzib" kitabının müəllifi və digərlərindən nəql edir: Əgər bir şəxsmüəyyən bir şəhərin əhalisinə filan miqdarda sədəqə verilməsini nəzr edərsə, sədəqənin verilməsi onun boynuna gələrək vacib olacaq.

Həmçinin deyir: Bir şəxs Curcan vilayətindən olan tanımmış və məşhur qəbr üçün filan miqdar

---

[1] Sülhül-İxvan, səh. 109

[2] "Əl-Qədir", c. 5, səh. 183

nəzr edərsə hökmü yuxarıda dediyimiz kimi olacaq. Nəzri əda etmək üçün "Təhzib" kitabının müəllifinin fikrincə, nəzri məlum şəxslər arasında bölməlidir. Əlbəttə bu ürfün (kütlənin baxışı) iqtiza etdiyi surətdədir. Amma ürf belə bir əməli qəbul etməzsə nəzrin düz olması haqda iki surət vardır.

1. Bu nəzr səhih və düz deyil. Çünki bu haqda şəriətdə bir subut yoxdur. Bunun əksinə olaraq Kəbə və mübarək qara daşa nəzr edilsə düzdür. Bu haqda şəriətdə dəlil mövcuddur.

2. Belə bir nəzr düzdür. Əlbəttə qəbr sahibinin xeyirxah və yaxşılıqla tanımma şərti ilə. Bu surətdə o ziyarətgahın məsləhəti üçün xərclənməlidir. Bundan başqa bi yerdə xərclənməsi düzgün deyil. Səbki adlı aılim nəzrin batil olmasını ürfün nəzri bölünməsini tələb etmədiyi yerdə daha münasib sayır[1].

3. Xalidi deyir: Nəzr məsələsi nəzr edənlərin niyyət və məqsədlərindən aslıdır. Çünki əməllərin qədri və qiymətləri niyyətlərindən aslıdır. Əgər bir şəxsin məqsədi ölünü özü və ona yaxınlaşmaq olarsa belə bir nəzr heçdə icazəli deyir. Amma onun məqsədi uca və əzəmətli Allah olarsa və o nəzrin xeyr və faydasının başqasına çataraq və savabının isə meyyidə hədiyyə olarsa belə bir nəzr nəinki icazəlidir bəlkə o nəzrə vəfa etmək vacib də sayıla bilər. Bu zaman nəzrdən faydalanan zəminə istər sırf nəzrin özündən məlum olsun (məsələn deyə bu pulla təam vermək üçün nəzr edirəm) istərsə də ümumi və mütləq formada iradə olunsun bu zaman ürf baxımından onun nəzri qəbri müəyyən məsləhətləri, həmin şəhərin sakinləri, o qəbrin qonşuluğunda olan şəxslər və meyyidin yaxın və qohumları üçün xərclənməlidir.

O deyir: Bu fikr Əzrə, Zərkeşi, İbn Həcər, Heysəmi Məkki, Rəmli Şafei, Qurbani Bəsri, Rafei,

[1] Fətava-Əssəbki, c. 1, səh. 294; Əl-Qədir, c. 5, səh. 181

Şeyx Məhəmməd Ğəzzi, Şey Qasim Hənəfi kimi şəxslərin fikirləridir[1].

3. Əzami demişdir: Son əsrlər alimlərindən bəziləri, İbn Teymiyyə və onun şagirdlərinin sözlərinə allanmışlar. Həqiqətdə İbn Teymiyyə və onun şagirdlərinin sözləri dində olan bir növ aldadıcı taktikadır və dini məsələləri heç bir müsəlmanın belə bir mətləb və mövzulara işarə etmədikləri halda mənalandırmışlar. Əgər bir şəxs müsəlmanların, peyğəmbərlər və əməlisaleh insanlar haqqında etdikləri nəzr  və qurbanlıqlarının məqsədi barəsində tədqiqat apararsa bu nəticəyə çatar ki, məqsəd ölülər tərəfindən sədəqə vermək və savabını isə onlara hədiyyə etməkdən başq bir şey deyil. Əhli-sünnət də diri şəxslərin sədəqəsinin ölülərə çatdığını və onlar haqda faydalı olması barəsində icma (yekdil rəy) etmişlər. Bu haqda olan hədislər  məşhur və düzgün hədislərdir. Buna əsasən peyğəmbər və əməlisaleh şəxslər üçün edilən nəzr, kəsilən heyvan və başqaları qanuni, məqbul və məşhur bir əməl olaraq müsəlmanların həyat tərziindən irəli gəlmiş, müəyyən və xüsusi bir məzhəbə aid edilməmişdir[2].

---

[1] Sülhül-İxvan, Əl-Qədir, c. 5, səh. 181

[2] "Furqanul-Quran", səh. 133; "Əl-Qədir", c. 5, səh. 181

## ALLAHDAN QEYRİSİNƏ AND İÇMƏK

1. Vəhhabilərin iddiası.
2. Bu idda barəsində olunan müzakirə və iradlar.
3. Əziz peyğəmbərin (s) Allahdan qeyrisinə and içməsi.
4. İbni Əbdul Bərrin bəhanələri
5. Allahdan qeyrisinə andın təyidi.
6. İbn Ömərin rəvayətində olan irad.

## ALLAHDAN QEYRİSİNƏ AND İÇMƏK

Vəhhabilər Allahdan qeyrisinə and içilən andı qadağan etmişlər. Onlardan bəziləri belə bir andı tam formada şirk bilmiş bəziləri isə onu kiçik və yüngül şirk adlandırmışlar.

İbn Teymiyyə deyir: Şirk iki qism olaraq iki yerə bölünür.

1. Böyük şirk: (şirk hər hansısa bir mövcudu Allahala şərik bilməyə deyilir) Böyük şirk bir neçə növə malikdir. O cümlədən, təvəssül, müəyyən bir məxluqdan şəfaət diləmək.

2. Kiçik şirk: Riya və sümmə:(öz əməllərini başqalarının qulağına çatdırmaq) kimi. Kiçik şirkin başqa növlərindən olan, Allahdan qeyrisinə and içməkdir. Bunun səbəbi İbn Ömər vasitəsi ilə Peyğəmbərdən (s) nəql olunan hədisdir ki, Peyğəmbər (s) buyurdu: "Allahdan qeyrisinə and içən şəxs şirk etmişdir." Kiçik şirk heçdə müsəlmanı dindən xaric etmir. Sadəcə olaraq bu əməl muqabilində tövbə olunmalıdır[1].

---

[1] "Rəsailul-Hidayə", səh. 25) Allahdan qeyrisinə andın içilməsini qəbul etməyənlər əsasən iki hədisə söykənərək istinad etmişlər. Birinci hədis həmin mətində olan hədisdir. İkinci hədis isə İbn Macənin sünən kitabının c. 1, səh. 277-də, Termizinin Camei kitabının c. 4, səh. 109-da, Nəsainin sünən kitabının c. 7, səh. 4-5 də və Sünən kubra kitabının c. 10, səh. 29-da olunan hədisdir. Hədis belədir:

"ان رسول الله سمع عمر وهو يقول وأَبي فقال ان الله ينهاكم أن تحلفوا بآبائكم ومن كان حالفاً فليحلف با لله اويسكت"

Peyğəmbər (s) Öməri atasının canına and içərərkən görərək buyurdu: Allah sizi atalarınızın canına and içməkdən çəkindirmişdir. And içmək istəyən hər bir şəxs Allaha and içməlidir yada sakit qalmalıdır. Bu hədisin onların iddiasına heç bir dəlaləti yoxdur. Belə böyük bir səhvin əsas səbəbi kiçik siql və əmanəti (əhli-beyt) tərk edərək Peyğəmbərin (s) vəsiyyətinə qulaq asmamaqdır.

Cavab: Peyğəmbərin (s), atalarının canına içilən andan etdiyi qadağa bir çox səhabələrin atalarının müşrik və büt pərəst olduqları üçündür. Buna əsasən belə bir şəxslərin Allah

Sənani özünün "Təhrirul-Etiqad" kitabında "Qubriyyun" (qəbirçilər)barəsində bir miqdar söhbət edərək onları həyat tərzini tam formada müşriklərin həyat tərzi kimi bilərək, əməllərinin isə şirkə səbəb olduğunu bildirəndən sonra deyir: Onlar (qəbirləri ziyarət etməyi icazəli bilənlər) Allahdan qeyrilərinin adlarına and içirlər. Bu zaman hətta haqqını isbat edən bir nəfər Allaha and içərsə, sözünü (andını) qəbul etmirlər. Amma belə bir şəxs Allaha yox öz övliyalarının[1] birinə and içərsə onun sözünü qəbul edərək onu təsdiq edirlər və bu bütləri ibadət etmək kimi bir şeydir[2].

---

yanında hörmət və müqəddəsliyi olmadığı üçündür. Nəticədə insan onlara and içməməlidir. Bundan əlavə özün dində müctehid və rəy sahibi bilən şəxs, istinbat zamanı heçdə yalnız bir hədisə söykənib fətva verməməlidir. Bu zaman bəlkə bir mövzu haqda nəql olunan hədisləri cəm edərk onun əsasında fətva verməlidir. Amma bunun əksinə olaraq İbn Teymiyyə və onun ardıcılları başqa hədislərə diqqət etməyərək öz xəyal və fikirləri əsasında istinbat etmişlər. Bununla bərabər İbn Macənin Sünən kitabında, (c. 1, səh. 278) Nəsainin Sünən kitabında (c. 7, səh. 7) bizim fikrimizi təsdiq və təyid edən hədislər mövcuddur. O, cümlədən "لا تحلفوا بآبائكم و بأُمها تكم و با لانداد" Ata və analarınıza və bütlərə and içməyin.

"لا تحلفوا بآبائكم ولا با الطواغيت" Atalarınız və bütlərə and içməyin.

Bu iki hədisə diqqət etməklə birinci rəvayətin məqsədi bizə bəlli olur. Belə ki, Peyğəmbərin (s) Ömərin ata və analarına and içməkdən çəkindirməsinin səbəbi Ömərin müşriklərə və şirk nişanələrinə içilən andından irəli gəlir. Buna şahid yuxarıdakı hədislərdə ata sözləri ilə yanaşı büt və üsyankar (günahkar) insanlar mənasında olan "Təvağit" və "Əndad" sözləridir. Buna əsasən Peyğəmbərin (s) nəhy edib çəkindirməsi yalnız bəzi andlara şamildir. Buna görə Peyğəmbər (s) kimi müqəddəs insanlara and içməkdən heçdə nəhy olunmayıb və bu işə qadağa qoyulmayıb.

[1] Övliya kəlməsindən məqsəd hərkəsin rəhbəri və müqəddəs sandığı bir insandır.

[2] "Kəşful-İrtiyab", səh. 268

## VƏHHABİLƏRİN NBAXIŞLARININ RƏDDİYYƏSİ

Allahdan qeyrisinə and içmək qaədim zamandan indiyə qədər Allahın özü Peyğəmbəri (s) və onun səhabə və tabeiləri (Peyğəmbəri (s) görməyib amma səhabələrin ardı ilə gedən şəxslər) və bütün müsəlmanlar tərəfindən baş vermişdir. İndi siə təfərruatına başlayaq:

1. Allahın quranda içdiyi andlar.

Allah Qurani-kərimdə bir çox məxluqların adına and içmişdir. O cümlədən "والعصر" əsrə[1] günortadan sonraya and olsun, "والعاديات" qaçan atlara and olsun, "والنازعات" günahkar insanların canlarını şiddətlə alan mələklərə and olsun, "والناشطات" möminlərin ruhlarını şad və məsrur ikən qəbz edən mələklərə and olsun, والذاريات" küləklərə and olsun, "فالجاريات" su üzərində üzən gəmilərə and olsun, "والتين" əncir meyvəsinə and olsun, "والضحى" gündüzə and olsun, "والسماء ذات البروج" çoxlu büclərə malik olan göyə and olsun, "والنجم اذا هوا" ulduzun gözdən itən zamanına and olsun, "والفجر وليال عشر" sübh çağına və on gecəyə and olsun, "ن والقلم" qələmə and olsun, "لا أُقسم بيوم القيامة" qiyamət gününə and olsun, "فلا اقسم با لخنس الجوار الكنس" and olsun hərəkət edən və gözdən itən ulduzlara, "ولعمرك انهم لفي سكرتهم" Ey Peyğəmbər (s) sənin canına and olsun onlar öz şəhvət və məstliyindədirlər[2].

Əlbəttə, mümkündür bir şəxs deyə: Allahdan qeyrisinə içilən andın Quranda Allah tərəfindən zikr

---

[1] bu kəlmə Quranda zaman və "əsr" yüz illik mənasında da ola bilər

[2] Bu ayələrdən əlavə təkcə "Şəms" surəsində Allah öz bəzi məxluqatına and içmişdir. Quranın özündə Allahın and içdiyi qırxa yaxın and mövcuddur. Bunula bərabər demək lazımdır ki, biz insanları hər növ şirkdən çəkindirən Allah, özü bu işə mürtəkib olmuşdur.

edilməsi insanında Allahdan qeyrisinə and içməyini icazəli saya bilməz. Cavabda isə onu demək laqımdır ki, Allah-taalanın özündən qeyrisinə and içməsi, insanın məxluqlara and içməsinin heç bir qəbahətə malik olmamasını çatdırır. Əgər Allah yaranmışlara and içməklə özü üçün şərik qazandırsa və kiçik şirkə mürtəkib olursa (bu işdən Allah uzaqdır) "تعلـى الله عن ذالك" bu işdə Allaha itaət edən ondan qeyrisinə and içməklə pis bir iş görməmişdir. Buna əsasən deyirik: Allah bəndəsi üçün şirkə bais olan hər bir iş qəbahət daşıyır və o Allahdan qeyrisinə and içməklə Allahın məxluqatını əzəmət və ucalıq baxımından Allaha oxşatmışdır belə bir əməl Allah tərəfindən də düz və yaxşı sayılmamışdır. Əgər and içməyin həqiqəti Allahı ondan qeyrisinə oxşatmaq və şirkdirsə, deməli belə bir andın Allah tərəfindən sadir olması bu əməlin həqiqətini dəyişdirmir[1].

2. Peyğəmbərərin (s) Allahdan qryrisinə and içməsi:

---

[1] Müəllifin bu sözü Qəstəlaninin "İrşadus-sari kitabında olan nəzərinin rəddində gəlmişdir. O, (Qəstəlani): Allah-taala üçün hər bir məxluquna and içməsi onun üçün mümkündür. Amma əksinə olaraq heçdə4 məxluqat üçün icazəli deyil ki, Allahdan qeyrisinə and içsin və sonra bir şerdən bir beytə istinad etmişdir.

و تقبح من سواك الشى
تفعله فيحسن منك ذالك

"Səndən başqa hər şey önümdə qəbih və pisdir və yalnız sənin gördüyün işlər yaxşıdır." Qəstəlani və onun kimi şəxslərin belə bir sözü onların "hüsn" və "qübh" barəsində olan baxışından olan irəli gəlir. Belə ki, Qəstəlani və onun timsalında olan alimlərin fikrinə əsasən hüsn (yaxşı) və qübh (pis) zatı deyil bəlkə arizidir. Buna əsasən deyirlər: Yaxşı və düz yalnız Allahın gördüyü işdir. və ola bilər bu iş zatən pis olsun və insan ağlı yaxşı pisi dərk etmir.

1. Bir kişi əziz İslam peyğəmbərinin hüzuruna gələrək dedi: Ey Allahın elçisi! Hansl sədəqənin faydası daha böyükdür? Peyğəmbər (s) buyurdu: "Atanın canına and olsun tezliklə sualın haqqında agah olacaqsan". Sağlam ikən, verdiyin mala həris ikən, kasıblıqdan qorxan zaman və gələcək yaşayışının fikri halında sədəqə ver[1]

**4. Hakim belə nəql edir: Peyğəmbər (s) Ömər ibn Xəttabın müşayiəti ilə bir cənazənin yanına gəldi. Bu zaman ağlayan qadınların səsi eşidildi. Ömər qadınları ağladıqları üçün məzəmmət etdi. Allah rəsulu (s) buyurdu: Ey Ömər! Onlarla işin olmasın. Çünki ağlar gözlər, müsibət görən insan və ölüm bir-biri ilə çox sıx əlaqəlidir[2].**

**Yuxarıdakı hədisdən anlaşıldığına görə dünyasını dəyişən hər hansı bir insan üçün ağlamağın haramlığı Ömərin təbiətinə xas hökümlərdəndir. Lakin Peyğəmbər (s) sünnəsinə görə bu növ əməl qadağan (haram) edilməmişdir.**

## PEYĞƏMBƏRİN (S) HƏYAT TƏRZİ

**Tarixi qaynaqlarda Peyğəmbərin (s) dəfələrlə dünyasını dəyişən yaxınları üçün ağladığı öz əksini tapmışdır. Buna misal olaraq, oğlu İbrahim, Əbdül-Müttəlib, Həmzə, Fatimə bint Əsəd, Amənə bint Vəhəb (Peyğəmbərin (s) anası), Osman ibn Məzun, Səd ibn Rəbi` və digərləri üçün ağlamağını göstərmək olar.**

**1. Oğlu İbrahimin vəfatı zamanı ağlaması: O həzrətdən övladının vəfatı zamanı ağlaması haqqında soruşduqda həzrət buyurdu:**

---

[1] “Ənsab əl-Əşraf”, c. 1, səh. 488; “Əl-İstiab”, c. 1, səh. 312.

[2] “Əl-Müstədrək əla əs-Səhiheyn”, c. 1, səh. 381; “Sünəni-Nisai”, c. 4, səh 19; “Müsnədi-Əhməd”, c. 3, səh. 323.

**Gözlərimiz yaşlıdır, ürəyimiz yanır, amma Allahın qəzəbinə səbəb olacaq bir söz işlətmirik[1].**

**2. Peyğəmbərin (s) Əbd əl-Müttəlibin vəfatı zamanı ağlaması: Ümmü-Yəmən deyir: Peyğəmbərin (s) Əbd əl-Müttəlibin cənazəsi aparılan tabutun yanında gedərək göz yaşı axıtdığının şahidi oldum.**

**3. Peyğəmbərin (s) Əbu Talibin vəfatı zamanı ağlaması: Əbu Talibin vəfat xəbərini Peyğəmbərə (s) verdikdə o həzrət ağladı, sonra isə buyurdu:**

**"Get ona qüsl ver, kəfənlə və dəfn et. Allah onu bağışlasın və rəhmət etsin![2]**

**4. Həmzə üçün ağlamaq: Peyğəmbər (s) Həmzənin öldrüldüyünü gördükdə ağlamağa başladı. Yaxından onun işkəncə ilə öldürüldüyünü görəndə daha ucadan ağladı[3].**

**5. Peyğəmbərin (s) (Əlinin (ə) anası) Fatimə bint Əsədin vəfatı zamanı ağlaması: Peyğəmbər (s) onun üçün namaz qıldı, məzarının torpağından özünə sürtdü və ağladı[4].**

**6. Peyğəmbərin (s) anası üçün ağlaması: Peyğəmbər (s) anası Amənə bint Vəhəbin məzarını ziyarət etdi və orada ağladı. Belə ki, o həzrətin (s) ağladığını görən ətrafdakılar da ağlamağa başladılar[5].**

**7. Peyğəmbərin (s) Sə`d ibn Rəbi` üçün ağlaması:**

---

[1] "Əl-Əqd əl-fərid", c. 3, səh. 19.

[2] "Ət-Təbəqat əl-kubra", c. 1, səh. 105.

[3] "Əs-Sirə əl-Hələbiyyə", c. 2, səh. 247.

[4] "Zəxair əl-Üqba", səh. 56.

[5] "Əl-Müstədrək əla əs-səhiheyn", c. 1, səh. 357; Tarix əl-Mədinə", c. 1, səh. 118.

**Cabir ibn Abdullah deyir: Sə`d ibn Rəbi` Ühüd döyüşündə öldürüldüyü zaman Peyğəmbər (s) Mədinəyə qayıtdı, sonra isə Həmra əl-əsədə getdi. Bu zaman Sə`din (olduqca uzaqgörən qadın olan) həyat yoldaşı Əsvafa (Bəqi məzarlığının bir hissəsinə) getdi və yemək hazırlayaraq Peyğəmbəri (s) oraya dəvət etdi. Biz sübh açıldıqdan sonra onun (s) yanında əyləşmişdik və Ühüd döyüşündə şəhid olanların necə şəhid olduqları haqqında danışırdıq. Bu zaman Sə`d ibn Rəbi`ni də yad etdik.**

**Peyğəmbər (s) buyurdu: "Mənimlə gəlin". Biz, iyirmi nəfərdən ibarət kişi o həzrətin (s) ardınca Əsvafa tərəf yollandıq. Oraya çatdıqca Peyğəmbər (s) içəri daxil oldu. Biz də onu müşayiət etdik. Yalnız oraya çatdıqda Sə`din həyat yoldaşının oranı süpürüb təmizlədiyini, su səpdiyini və gələnlərin əyləşməsi üçün xurma ağacının budaqlarından döşədiyini müşahidə etdik. And olsun Allaha! Orada nə xalça, nə də döşəkcə var idi. Biz hamımız əyləşdik. Peyğəmbər (s) bizim üçün Sə`d ibn Rəbi` haqqında danışdı və Allahın onu bağışlaması üçün dua etdi. Daha sonra isə buyurdu: "Mən "Ühüd" günü Sə`din ölümünə səbəb olan çoxlu sayda oxun ardıcıl olaraq ona dediyini gördüm". Qadınlar Peyğəmbərin (s) bu sözlərini eşitdikdə ağladılar və qadınlara da ağlamamaqlarını tapşırdı[1].**

---

[1] "Əl-Müstədrək əla əl-səhiheyn", c. 1, 261; "Əs-Sünən əl-kubra", c. 3, səh. 407. Ümumiyyətlə insana yaxın olan əzizlərinin ayrılığı zamanı ağlamaq fitri aktdır. Müasir elmlər, xüsusilə psixologiya elmi bunu tam olaraq təsdiq edir. Çünki ağlamaq insanın daxili kinlərini, əzizlərini əldən verdiyi üçün yaranan narahatlığını azaldır və

## SƏHABƏ VƏ TABEİLƏRİN HƏYAT TƏRZİ

**1. Əli (ə) Malik Əjdərin (s) şəhid olduğu xəbərini aldıqda çıxış edərək buyurdu: Ağlayanların Malik kimi şəxs üçün ağlamaları lazımdır[1].**

**2. Ayişənin ağlaması: İbad deyir: Ayişənin belə dediyini eşitdim. Peyğəmbər (s) dünyasını dəyişdiyi zaman başını bir balışın üzərinə qoyub digər qadınlarla birgə üzümüzə və sinəmizə vururduq[2].**

---

insanın ürəyi boşalaraq rahatlanır. Qurani-kərimin Yusif surəsində deyilir: وابيضت عيناه من الحزن

"Həzrət Yaqub (ə) o qədər ağladı ki, gözləri tutuldu". İslam Peyğəmbəri (s) də oğlu Tahirin vəfatı zamanı ağlayırdı.

Heysəmi "Məcmə əz-zəvid" əsərində Peyğəmbərdən (s) nəql edərək yazır:

إن العين تذرف و إن الدمع يغلب و القلب يحزن ولا نعصى الله

"Gözümüz ağlar və yaşlıdır, qəlbimiz qəmlidir. (Təbii ki,) Allaha asi olmayacağıq".

[1] "Siyəri əlamin-nübəla", c. 4, s. 34; Tarixi-İbn Əsakir 59:288.

[2] "Əs-sirə ən-nəbəviyyə", c. 3, səh. 171. Birinci xəlifə Peyğəmbər (s) üçün ağladı və bu ağrı-acının təhriki ilə mərsiyə dedi:

يا عين فا بكى ولا تسامى

و حق البكاء على السيد

(Ey gözüm! Ağla və ağlamaqan yorulma. Çünki o dahi insan üçün ağlamağa dəyər). "Əl-Ğədir", c. 6, səh. 164-167.

**3. İbn Məsudun ağlaması: İbn Məsud Ömərin qəbri knarında dayanaraq cübbəsini yerə atıb ağladı[1].**

**4. Ömər ibn Xəttabın ağlaması: Osman deyir: Noman ibn Muqrinin ölüm xəbərini Ömərə verdikdə o, əlini başına qoyub ağladı[2].**

**5. Abdullah ibn Rəvahənin ağlaması: İbn Hişam deyir: Abdullah ibn Rivahə Həmzə ibn Əbd əl-Müttəlib üçün ağladığını deyirdi[3].**

**6. Bəni-Sufyan qadınlarının ağlaması: Həsən Bəsri deyir: Kərbəla hadisəsi zamanı Hüseyn ibn Əli (ə) ilə birgə əhli-beytindən də on altı nəfər öldürüldü. Şamlılar Peyğmbərin (s) qızlarını əsir kimi dəvələrə mindirdilər. Yezidin sarayına daxil olduqda İmam Hüseynin (ə) qızı Fatimə buyurdu:**

**Ey Yezid! Peyğmbərin qızlarını əsir tutmusan?**

**Yezid dedi: Xeyir! Bunlar əsir deyil, azaddırlar. Əmin qızlarının yanına get. O zaman görəcəksən ki, onlar da siz etdiyinizi edirlər. Fatimə deyir: Onların yanına getdikdə Bəni-Süfyan qadınlarnın öz sinələrinə vurub ağladıqlarının şahidi oldum[4].**

**7. Məkkəlilərin Peyğəmbərin (s) vəfatı zamanı ağlamları: Sə`id ibn Müsəyyib deyir: Peyğəmbər (s) dünyasını dəyişdikdə Məkkə əhalisi bütünlüklə lərzəyə düşdü və matəm sədası hər yeri bürüdü. Əbu Quhafə bu səsi eşitdikdə dedi: Bu nə səsdir?**

**Ona Peğəmbərin (s) dünyasını deyişdiyi xəbərini verdilər. Bu xəbəri eşidən Əbu Quhafə**

---

[1] "Əl-Əqd əl-fərid", c. 3, səh. 195.

[2] "Əs-Sünən əl-kubra", c. 3, səh. 407.

[3] "Əs-Sirə ən-nəbəviyyə", c. 3, səh. 171.

[4] "Əl-Əqd əl-fərid", c. 4, səh. 383.

**"İnna lillahi və inna iləyhi raciun" deyərək o həzrətə rəhmət oxudu[1].**

**8. Mədinə sakinlərinin Hüseyn ibn Əlinin (ə) şəhadəti zamanı ağlamaları: Təbəri yazır:**

**"Abeydullah ibn Ziyad (Allah ona lənət etsin!) İmam Hüseyn ibn Əlini (ə) qətlə yetirdikdən sonra İmamın (ə) başını onun yanına gətirdilər. O, Əbu əl-Məlik ibn Əbu əl-Harisi çağıtdırıb ona dedi: Mədinəyə get və Hüseyn ibn Əlinin (ə) öldürülməsi xəbərini Mədinə hakimi Ömər ibn Səidə çatdır.**

**Əbdül-Məlik deyir: Mən Mədinə şəhərinə daxil oldum. Bu zaman Qüreyşdən olan bir şəxslə qarşılaşdım. O, məndən yeni nə xəbər olduğunu soruşdu. Mən, xəbərlər sizdədir - deyə bildirdim. O, dedi: "İnna lillahi və inna iləyhi raciun!" Hüseyn ibn Əli (ə) öldürüldü. Əmr ibn Səidin yanına getdim. O, nə baş verdiyini soruşdu. Mən: Hüseyn ibn Əli (ə) öldürüldü - deyə nə baş verdiyini bildirdim. Əmr ibn Səid dedi: Hüseynin öldürüldüyünü uca səslə şəhərə elan et. Əmr ibn Səidin dediklərini həyata keçirtdim. And olsun Allaha, o günə qədər Bəni-Haşim qadınlarının heç kim üçün Hüseyn ibn Əli (ə) üçün ağladıqları kimi ağladıqlarını və bir yerə toplaşdıqlarını nə görmüş, nə də eşitmişdim[2].**

**Mədinə əhalisi İmam Hüseynin (ə) şəhadət xəbərini eşitdikdə Əqil ibn Əbu Talibin qızı bu şeri növhə şəklində oxudu:**

**Əgər bir gün Peyğəmbər (s) sizdən: Əhli-beytilə (ə) necə davarandınız? - deyə sorsa cavabınız nə olacaq? Bir halda ki, onların**

---

[1] "Əxbari-Məkkə", Fakihi, c. 3, səh. 80.

[2] "Tarixi-Təbəri", c. 3, səh. 342; "Əl-Əğani", c. 24, səh. 163.

**bəzisini əsir tutdunuz, bəzisini isə öldürdünüz. Halbuki, siz sonuncu Peyğəmbərin (s) ümmətisiniz.**

## KÜÇƏLƏRDƏ MATƏM MƏRASİMLƏRİ KEÇİRMƏK VƏ TƏBİL ÇALMAQ

**1. Əbd əl-Möminin (vəfat-346 h.) əza məclisində təbil çalınması:**

**Nəcəfi deyir: Mən namazxanada Əbd əl-Möminin ibn Xələfin cənazəsinin yanında dayanmışdım. Təbil səsləri (qoşunun döyüş zamanı çaldığı təbil səsi kimi) ətrafı bürüdü. Belə ki, bəziləri şəhərə qoşun yürüdüldüyünü zənn etdilər. Əhali yığılıb cənazə namazı qıldıqda təbil səsləri kəsildi. Sanki heç bir səs-küy yox imiş[1].**

**Əbd əl-Malik imam, hafiz və Bağdadda Məhəmməd ibn Davudun fiqhinə etiqad bəsləyənlərin bariz nümunəsidir. O, daim fiqhdə "Qiyas" (fiqhi hökmlərin müqayisə üsulu ilə əldə edilməsi) metodundan istifadə edənlərə qarşı çıxırdı. O, böyük elmi məharətə malik bir abid idi.**

**2. Cüveyni (vəfat-488 h.) üçün bir il əza saxlanılması: Zəhəbi deyir: Cüveyni rəbi əs-sani ayının 25-də dünyasını dəyişdi və öz evində dəfn**

---

[1] "Siyəru əlam ən-nübəla", c. 815, səh. 480; "Tarixi-İbn Əsakiri", c. 10, səh. 272; "Təzkirtu əl-hüffaz", c. 3, səh. 866; "əl-İbər", c. 2, səh. 274; "Mir`at əl-cinan", c. 2, səh. 340; "Təbəqat əl-hüffaz", səh. 354; "Şəzərat əz-zəhəb", səh. 373. Şamlılar bir il boyunca Osman üçün əza saxlayıb ağladılar "Tarixi-İslam", c. 3, səh. 352.

**edildi. Bir neçə ildən sonra onun cəsədi "Məqbərə əl-Hüseyn"ə köçürüldü və atasının məzarı yanında dəfn edildi. O, dünyasını dəyişdikdə camaat onun minbərini təbərrük məqsədi ilə sındırdı və onun üçün əza mərasimi saxlayırlar deyə mağazaları bağladılar və mərsiyələr oxumağa başladılar. Onun 400-ə yaxın tələbəsi var idi. Onlar hamısı müəllimləri öldü deyə mürəkkəb qablarını sındırdılar və müəllimləri üçün matəm saxladılar. Onlar matəm münasibəti ilə bir il başlarından papaqlarını götürdülər. Belə ki, heç bir kimsənin başını örtməyə cürəti çatmadı. Tələbələr şəhərdə gəzir, müəllimləri üçün növhə oxuyur və ağlayırdılar[1].**

**Zəhəbi Cüveyni üçün saxlanılan bu əzadarlığı, camaatın dükanları bağlamalarını, tələbələrinin növhə oxumalarını və s. qeyd etdikdən sonra mülayimcə deyir: "Bu növ əməllər əcəmilərə məxsus ənənələrdir. Elm adamları, hansı ki dinin Peyğəmbər (s) sünnətinin ardıcıllarıdırlar, bu kimi əməllərdən uzaqdırlar".**

**Zəhəbi əsərinin digər bir hissəsində Peyğəmbərin (s) nəvəsi İmam Hüseyn (ə) üçün Muizzüd-dövlə zamanında Bağdadda əza saxlanıldığına işarə edərək yazır: "Əhali öz dükanlarını bağladı. Hər yerdən qara parçalar asdı və küçələrə töküldü. Onlar öz üz-gözlərinə vurur və İmam Hüseyn (ə) üçün əza saxlayırdılar". Sonda isə həyasızcasına, tam kin**

---

[1] Siyəru əlam ən-nübəla", c. 18, səh. 468; "əl-Müntəzəm", c. 6, səh. 20; "Tarixi-Bağdad", səh. 93; "Təbəqat əs-sənəvi", c. 1, səh. 411; "Təbyini kizb əl-müftəri", səh. 284; "Vəfəyat əl-əyan", c. 3, səh. 149.

**və təkəbbür dolu bir tərzdə deyir: "İlahi! Bizim ağıllarımıza qüvvet ver!**

**Zəhəbinin Behişt cavanlarının ağası İmam Hüseyn (ə) üçün matəm mərasimi keçirilməsinə bu şəkildə yanaşması təəccüb doğurur. Daha təəccüblüsü isə budur ki, heç bir alim onun bu fikrinə qarşı çıxmadı, hamı bu fikri sükutla qarşıladı. Lakin Zəhəbi Cüveynin vəfatı zamanı keçirilən əza məclisilərinə qarşı çıxaraq onun tələbələrini əcəm adlandırdıqda həmin sükuta qərq olmuş alimlər dilə gəldilər və Zəhəbinin cavabını verdilər.**

**Sübki Zəhəbiyə cavab verərək deyir:"Bu şəxs (Zəhəbi) dilinə elə sözlər gətirir ki, İmam Cüveyni belə eşitsə, onun sözlərindən narahat olar. O, böyük şəxsiyyətdir deyib əməllərinə göz yummağmıza ehtiyac yoxdur. Çünki o, nə özü belə işlər görərdi, nə də tələbələrinə ondan sonra belə etmələrinə vəsiyyət etmişdi.**

**Bunu bəziləri onun müasirləri tərəfindən böyük hörmətlə qarşılındığını göstərmək üçün bu şeyləri nəql etmişlər. İmam Cüveyni yaşadığı dövrdə çoxlu sayda elm adamının olmasına baxmayaraq, böyük hörmətə malik idi və dügərlərinə nisbətdə seçilirdi. Çünki onun təqribən dörd yüz tələbəsi var idi. Həmin tələbələr öz müəllimlərinin ayrılığına dözə bilmədikləri üçün bu kimi əməllər həyata keçrirdilər. Onların başına gələn bu müsibət bə qədər ağır, dözülməz olmasaydı onlar heç bir zaman bu növ mərasimlərin keçirilməsinə yol verməzdilər. Əgər Allah-taala kiməsə İmam Cüveynini tanımaq nəsib etsə, o zaman hər şey ona aydın olacaq. Hər halda İmam Cüveyninin öz müasirlərindən seçildiyi heç kimə sir deyil"[1].**

---

[1] Təbəqat əş-Şafiiyyə", c. 5, səh. 184; "Tarixi-İslam", səh. 443.

**3. İbn Cövzü (vəfat-597 h.) üçün bir ay əza saxlanılması: Zəhəbi deyir: "İbn Cövzü ramazan ayının 23-də, cümə axşamı, məqrib və işa namazları arasında dünyasını dəyişdi. Bazarlar mağazalar bağlandı. İnsan axınından böyük bir izdiham yarandı. Həmin gün çox əzəmətli gün idi. İnsanlar iftar edərək - istidənmi, yoxsa narahatlıqdanmı - özlərini suya atırdılar. Mərhumun cənazəsi qəbrə çatmamış camaat kəfənini parça-parça edib təbərrük məqsədi ilə götürdülər. Onu böyük çətinliklə qəbrə qoydular. Qəbrə qoyularkən azançının "Allahu əkbər" sədası ucalırdı. Hamı ağır qəm içində idi. Belə ki, ramazan ayı boyunca məzarı kənarında gecələdilər.**

**Zülmət gecədə şam və çıraq işığında Quran oxuyurdular. Biz şənbə gününə qədər onun məzarı yanında idik. Onun üçün əza saxlayır, haqqında nitq söyləyirdik. Bizimlə birgə böyük bir izdiham da əza saxlayırdı".**

**Maraqlıdır ki, onların iddia etdiklərinə görə İbn Əsakir və İbn Əbd əl-Əziz dünyasını dəyişdikdə səma onlar üçün ağladı. Bu sözləri biri-digərinin ardınca qeyd edir və doğruluğunu, yaxud yanlışlığını araşdırmırlar. Lakin behişt cavanlarının ağası [1] İmam Hüseyn (ə) üçün**

---

[1] "Siyəru əlam ən-nübəla", c. 18, səh. 379. Rəvayətdə deyilir: الحسن والحسين سيد شباب اهل الجنه "Həsən və Hüseyn cənnət cavanlarının ağalarıdırlar". Bu hədisi əksər əhli-sünnə alimləri nəql etmişlər. Misal üçün, Xətib, Xəsais əl-Ülva" əsərində, Tirmizi, "Sünən", İbn Macə, "Sünən", İmam Əhməd ibn Hənbəl "Müsnəd" və Sübt ibn Cövzü "Təzkirə" əsərində qeyd etmişlər.

**səmanın ağladığını eşitdikdə buna şübhə ilə yanaşır, digərlərini də şəkkə salırlar.**

**4. Səmanın İbn Əsakir (vəfat-571 h.) üçün ağlaması:**

**İbn Əsakirin oğlu deyir: "Atam dünyadan köçdüyü il yağış yağırdı. Lakin atam dünyasını dəyişdiyi zaman elə ki, camaat onun cənazəsini çiyninə aldı, yağış yağmağa başladı. Sanki səma atam dünyadan köçdüyü üçün gurhagurla yağaraq ağlayırdı[1].**

**5. Səmanın Ömər ibn Əbd əl-Əziz üçün ağlaması:**

**Xalid Rüb`idən nəql edildiyinə görə, o deyərmiş: "Tövratda deyilir: Göy və yer Ömər ibn Əbd əl-Əzizin vəfatı münasibəti ilə qırx gün ağlayacaq"[2].**

## SÜBT İBN ƏL-CÖVZİ TƏRƏFİNDƏN İMAM HÜSEYN (Ə) ÜÇÜN ƏZA MƏRASİMİ SAXLANILMASI

**İbn Kəsir yazır: "Nasir şahın dövründə Hələb hakimindən Aşura müsibətlərinin, İmam Hüseynin (ə) qətli zamanı baş verən hadisələrin əhaliyə çatdırılması tələb olundu. Sübt ibn Cövzi mənbərə çıxdı. Uzun müddət heç bir söz demədən mənbərdə əyləşdi. Sonra başındakı örtüyü götürərək hönkürtü ilə ağlamağa başladı və ağladığı zaman aşağıdakı bir neçə beyt şeri oxudu:**

---

[1] "Möcəm əl-üdəba", c. 13, səh. 75. Bəltin bir hissəsində səma qan ağlayırdı. "Tarixi-İslam" (246-ci ilin hadisələri), səh. 17.

[2] Ər-Rəvz əl-faiq", səh. 255; "əl-Qədir", c.11, səh. 120.

*Vay olsun şəfaətcilərinin öz düşmənləri olana! Şeypur çalındıqda hamı bir nəfər kimi (şeypur çalınan səmtə) addımlayacaq. Bu qiyamət səhnəsinə mütləq (anamız) Fatimə (ə) də gələcək, özü də Hüseynin, qanına boyanmış köynəyi ilə gələcək.*

**Bu sözləri dedikdən sonra minbərdən endi və Salihiyyəyə doğru (onun yaşadığı yer) getdi. Belə ki, yol boyunca onu ağlayan gördülər (Allah ona rəhmət eləsin).**

**Bütün bu tarixi dəlillərdən belə bir nəticə alırıq ki, matəm və əza mərasimləri keçirmək, mərsiyə oxumaq, növhə deyə-deyə küçələri gəzmək, əzizlərinin ayrılığına dözümsüzlük göstərmək, sinə vurmaq, təbil çalmaq, mağazaları bağlamaq və s. əməllər matəm əlamətidir. Hansı ki, müsəlmanlara arasında geniş hal almışdır və heç bir kimsə onları bu əməllərindən dolayı ağılsızlıqda ittiham edərək siz bidət qoyaraq haram iş görürüsüz deyə bilməz[1].**

---

[1] Əl-Bidayə vən-nihayə", c.13, səh. 207. Bu haqda çoxlu faktlar qeyd edilmidşdir. Hətta bir çox hədisşünasların vəfatından öncə belə tələbələri (bir yerə) toplaşar və onlar üçün ağlayardılar. Belə hədislərdən biri Furari (vəfat-530 h.) haqqında qeyd edilmişdir. İbn Səmani deyir: "Yaxşı yadımdadır. 530-cu ilin ramazan ayında evdən xaric oldum. Özümlə bir çox ləvazimat aparırdım ki, (Nəsrabada) Müslim ibn Həccacın (Səhih əsərinin müəlifi Müslim ibn Həccacdır) məzarına gedib orada "Səhih" əsərini sona yetirim. Orada belə bir hadisə müşahidə etdim. Kitabı oxuyan bir şəxs onu ortərək, ağlayıb dua etdi. Oradakılar da hamısı ağladılar. O dedi: Bəlkə bundan sonra mən olmayım. O zaman bu kitabı mənim üçün oxuyan ağlamayacaq (Təbəqat əş-Şafiiyyə", c. 6, səh. 169).

**Əlbəttə, behişt cavanlarının ağası İmam Hüseyn (ə) üçün əza mərasimi keçirmək və o Həzrətin (s) Bəni-Üməyyə kafirləri tərəfindən şəhadətə yetirildiyi haqqında söz düşdükdə İbn Teymiyyənin tərəfdarları özlərindən çıxır, ürəklərində bəslədikləri kinləri ədəbsizcəsinə dilə gətirir və onu əsassız olaraq tənqid atəşinə tuturlar. Burada insan təbii olaraq onların Bəni-Üməyyə ardıcılları olduqlarını fikirləşir. Allah onları Bəni-Üməyyə ilə məşhur etsin!**

## DÜNYADAN KÖÇMÜŞLƏR ÜÇÜN AĞLAMAIN HARAM OLMASININ DƏLİLLƏRİ

**Birinci dəlil: Bizə gəlib çatan bəzi hədislərdə deyilir: Dünyasını dəyişmiş insan yaxınlarının onun üçün ağladıqları zaman əzaba düşür. Bu hədislər İbn Ömər və Xəlifədən nəql edilmişdir. Onları qısaca nəzər salaq:**

**1.Meyit yaxınları üçün ağlayarkən əzaba düşür.**

**2. Meyit onun üçün edilən ahu-zarlar ucbatından əzaba düşür.**

**3. Meyit bəzi ailə üzvlərinin ağlaması nəticəsində əzaba düşür[1].**

**Bəzi mətnlərdən hiss olunur ki, bu hədisi nəql edən rəvayətçi səhvə yol vermişdir və ya ümumiyyətlə hədisin mətnini unutmuşdur. Buna sübut Aişənin söylədikləridir. İbn Abbas deyir: “Ömər dünyasını dəyişdikdə həmin hədisi**

---

[1] “Buxari”, əl-Cənai fəsli; “Səhih-Müslim”, c. 11, səh. 99, hədis: 857; “əs-Sirə əl-Hələbiyyə”, c. 3, səh. 310; “Sünəni İbn Macə”, c. 1, səh. 506, hədis: 1589.

**Aişənin yanında dedilər. Aişə dedi: "Allah Ömərə rəhmət eləsin! And olsun Allaha Peyğəmbər (s) belə söz deməyib. Peyğəmbərin (s) buyurduğu belədir: "Həqiqətən, Allah kafirin yaxınları ona ağladığı zaman onun əzabını artırır. Sizin üçün Quranda buyurulan kifayətdir" (Fatir, 18). Hətta, (məlum hədisi nəql edən) İbn Ömər özü də orda idi və Aişənin bu sözünə etiraz etmədi.**

**Digər bir hədisdə Aişədən nəql edildiyinə görə ona dedilər: İbn Ömər Peyğəmbərdən (s) nəql edir ki, o Həzrət (s) buyurmuşdur: "Meyitin qohumları onun üçün ağladıqda o əzaba düşür: Aişə bu hədisi eşitdikdə dedi: Allah İbn Öməri bağışlasın! O yalan deməyib. Lakin ya hədisi unudub, ya da nəql edərkən səhvə yol verib. Peyğəmbər (s) yəhudi qadınının məzarının yanından keçərkən yaxınlarının onun üçün ağladıqlarını gördü. Bu zaman Həzrət (s) buyurdu: "Onlar meyit üçün ağlayırlar. Bir halda ki, meyit qəbrində əzaba düşmüşdür.**

## SÖZÜGEDƏN RƏVAYƏTLƏRLƏ BAĞLI İRƏLİ SÜRÜLƏN VERSİYALAR

**Bəzi elm adamları bu hədisləri (müxtəlif mənaları) yazmağa çalışmış və bir neçə versiya irəli sürmüşlər:**

**1. Hədisin mənası budur ki, onlar meyid üçün ağlayır, növhə oxuyur və onun yaxşı xüsusiyyətlərini dilə gətirirlər. Bir halda ki, bu sayılanlar yalnız onların fikrincə düzdür. Lakin şəriətə, dinə görə yalnız bir yığın pislikdən, mənfi xarakterlərdən başqa bir şey deyil. Hansı ki, meyid onlara görə əzaba düşür. Misal üçün növhə oxuyarkən dünysını deyişmiş insana deyirlər: Ey həyat yoldaşını dul qoyub gedən! Ey**

**övladlaına matəmə qərq edən insan! Ey abadlıqları viran qoyan! Ey dostluq əlaqələrini qıran və. s. Onların fikrincəbu şücaət hesab edilir. Halbuki, bütün bunlar şəriət baxımından haramdır.**

**2. Bəziləri hədisin mənasını açıqlayarkən deyirlər: Dünyadan köçən insn yaınlarının ağlaşma səsini eşitdikdə narahat olur və onlara can yandırır. İbn Cübeyr və digərləri b qənaətdədirlər. Qazi deyir: Bu hadisə verilən açıqlamalar arasında ən yaxşısdır.**

**3. Aişədən nəql olunduquna görə o hədisi izh edərək demişdir: Kafir və qeyri-kafir hamısı günahkardır. Qohumları onlar üçün ağladıqda onlar əzaba düşürlər və günahlarına görə cəzalandırırlar. Bu o deməkdeyil ki, onun əzabına səbəb yaxınlarının ağlamasıdır[1].**

**4. Əllamə Məclisi "Bihar"əsərində yazır:**

**"ان الميت يعذب ببكاء أهله" hədisində mövcud olan "ب" şəkilçisi "birgə" "birlikdə" mənalarını ifadə edir. Yəni dünyadan köçmüş insan yaxınları onun üçün ağladığı zaman, həmin anda əzab çəkirlər[2].**

**İkinci dəlil: Müttəqi Hindinin Aişdən nəql etdiyi bir hədisdə deyilir: Cəfər ibn Əbu Talib, Zeyd ibn Harisə və Abdullah ibn Rəvahənin şəhid olduğu xəbəri gəldikdə Peyğəmbərin (s) mübarək çöhrəsində narahatlıq açıqca hiss olunurdu. Mən qapıdan baxırdım. Bir nəfər gəlib dedi: Ey Allahın Rəsulu (s) qadnlar Cəfər üçün ağlayırlar. Peyğəmbər (s) buyurdu: Get onları sakitləşdir! Lakin sakit olmasalar, onların üzünə torpaq səp.**

---

[1] Həmin qaynaq.

[2] "Bihar əl-ənvar", c. 79, səh. 409.

## BU HƏDİS BİR NEÇƏ CƏHƏTDƏN İRADLI HESAB EDİLİR

**1. Bu hədis Peyğəmbərin (s) düyadan köçən nsan üçün ağladığını göstərən hədislərlə ziddiyyət təşkil edir. Hansı ki, o Həzrət (s) özü ağlayır və digərlərini də (misal üçün Cəfərin, Həmzənin şəhadəti zamanı) ağlamağa çağırırdı. Hətta mötəbər hədislərə görə Ömər qadınların ağlayıb növhə deməsinə icazə vermədikdə ona dedi: "Onlarla işin olmasın. Çünki gözlər ağlayır. İnsanlar müsibət görüb. Ölüm (bizə də) yaxındır"[1].**

**2. Hədisin sənəd silsiləsində Məhəmməd ibn İshaq ibn Yəsar mövcuddur. Onun haqqında fikir ayrılığı çoxdur. İbn Nümeyr deyir: "Məhəmməd ibn İshaq şəxsiyyəti məlum olmayan (naməlum) insanlardan yanlış hədislər nəql edir". Əhməd deyir: "O, hədis vurğunu idi. Digərlərinin hədislə bağlı yazılarını alırdı və onları öz yazılarına daxil edirdi". Əhməddən nəql edildiyinə görə, o deyərmiş: "İbn İshaq hədisləri (hiyləgərcəsinə) qarışdırır və zəif hədisləri güclü hədislər kimi qələmə verirdi". Əbu Əbdullahdan nəql olunduğuna görə, o İbn İshaq haqqında deyirmiş: "O, kimdən nə nəql etdiyinə heç bir əhəmiyyət vermirdi. Onun nəql etdiyi hədislərə əsaslanmaq olmaz. Yəhya ibn Muindən də eynilə həmin ibarələr nəql edilmişdir. O, əlavə olaraq demişdir: İBn İshaq haqqında nəql olunan digər bir dəyərləndirmədə deyilir: "O, zəif rəvayətçidir və heç bir şəkildə**

---

[1] "Sünəni-Nisam", c.4, səh. 19: "Müsnədi-Əhməd", c.3, səh; "əl-Müstədrək əla əs-səhiheyn", c. 2, səh. 381.

güclü hesab edilə bilməz”. Nisai deyir: “İbn İshaq güclü rəvayətçi deyil”[1].

3. Nəsr ibn Əbu Asim deyir: “Bir gecə Ömər Mədinədə növhə oxuyub ağlayan qadınların səsini eşitdi. Qadınların yığıldığı evə hücum çəkdi və onları dağıtdı. Bu qadınlardan birini tutub şallaqla vurdu. Belə ki, qadının başından örtüyü düşdü. Ömərə dedilər: Ey xəlifə! Qadının tükləri görünür. Ömər dedi: “Bəli, amma haram deyil”[2].

## BU HƏDİS BİR NEÇƏ BAXIMDAN İRADLI HESAB EDİLİR

1. Hədis sənəd baxımından zəifdir. Çünki onun sənəd silsiləsində İbrahim ibn Məhmməd ibn Əbu Yəhya kimi şəxslər mövcuddur. Yəhya ibn Səid deyir: Malikdən İbn Məhəmməd haqqında “o, etibarlıdırmı?- deyə soruşduqda Malik dedi: “Xeyir ona öz dinində belə etibar etmək olmaz”.

Əhməd deyir: “Onda (İbn Məhəmməddə) bütün iradlar mövcuddur. Onun hədisləri yazılmır. Çünki o, olduqca əsassız hədislər nəql edir. Daim digərlərinin hədislərini öz kitabında yerləşdirir”. Bəşir ibn Müfəzzəl deyir: “Mədinə fəqihlərindən İbn Məhəmməd haqqında soruşdum. Bütün Mədinə fəqihləri ya onu yalançı, ya da yalançılığa yaxın şəkildə vəsf etdilər”. Yəhya ibn Səid deyir: “O, yalançıdır. İbn Muin onun haqqında demişdir: “O etibar olunası insan deyil”.

Nisai deyir: “O etibarlı deyil. Onun (nəql etdiyi) hədislər yazılmır”[3].

---

[1] “Təhzib əl-dəmal”, c. 16, səh. 70-80.
[2] Əbd ər-Rəzzaq”, c. 3, səh. 557, hədis: 6682.
[3] “Təhzib əl-əmal”, c,1, səh. 420.

**2. Doğrusu Ömərin naməhrəm qadınlar olan evə hücum çəkməsi[1], sonra da qadının başından**

---

[1] Ömərin törətdiyi əməllərdən biri tarixdə tam dolğunluğu ilə qeyd edilmişdir. Bu, onun vəhy evinə, yəni həzrət Fatimənin (s) evinə hücum çəkməsidir. Əbd ər-Rəhman ibn Əvf deyir: "Əbu Bəkr xəstə olduğu zaman ona baş çəkmək üçün yanına getdim. Xeyli söhbət etdikdən sonra mənə dedi: Həmişə arzu edirəm ki, kaş üç işi görməyəydim. Arzu edirəm ki, ey kaş üç işi görəydim və arzu edirəm ki, kaş üç şeyi Peyğəmbərdən (s) soruşaydım. Gördüyüm üçün peşimançılıq keçirdiyim bu üç iş bunlardır: Kaş Fatimənin (s) evinin hörmət pərdəsini parçalamayaydım. Onu öz bildiyi kimi etməsinə izn verəydim. Hətta mənimlə döyüşə belə qalxsyadı.

1. İbn Əbu Şeybə, "əl-Müsənnəf", c. 8, səh. 572.
2. Bilazəri, "Ənsab əl-əşraf", c. 1, səh. 586 (Qahirə çapı).
3. İbn Qüteybə, "əl-İmamə vəs-siyasə", səh. 12 (Misir çapı).
4. Təbəri, "Tarix", c. 2, səh. 443 (Beyrut çapı).
5. İbn Əbd ər-Rəbbih, "əl-Əqd əl-fərid", c. 4, səh.260.
6. İbn Əbd əl-Birr, ""əl-İstihab", c. 3, səh. 275 (Qahirə çapı).
7. Əbu əl-fida, "əl-Müxtəsər fi əxbari əl-bəşər", c.1, səh. 156.
8. Nüveyri, "Nihayə əl-ərəb fi əxabr əl-bəşər", c.19, səh. 40.
9. Syuti, "Müsnədi-Əhməd", səh. 36.
10. Müttəqi Hindi, "Kənz əl-ümmai", c. 5, səh. 651. hədis. 14131.
11. Dehləvi, "İzalə əl-xülafə", c. 2, səh. 29.
12. Məhəmməd Hafiz İbrahim, "Qəsideyi-Öəməriyyə", c. 1, səh. 29.

**örtüyünü götürməsi və başının tükü göründüyü zaman onun haram olmadığını deməsini başa düşmək çətindir.**

**Ömərin məlum sözünün mənası budur ki, həmin qadınlar müsəlman deyillər və İslam dinindən çıxmış hesab olunurlar. Nəhayətdə isə onun bu addımı vəhy ocağına hücum çəkməsini xatırladır.**

---

13. Məhəmməd Rza, "Əlam ən-nisa", c. 4, səh. 114.

14. Əbu Übeyd, "Əmval", səh. 174-195.

15. İbn Səd, "ət-Təbəqat əl-kübra", c. 8, səh. 114.

16. Təbərani, "əl-Möcəm əl-kəbir", c. 1, səh. 62, hədis. 2444.

17. İbn Əbd ər-Rəbbih, "əl-Əqd əl-fərid", c. 4, səh. 268.

18. Nizam, "əl-Vafi bil-vəfiyyat" dan nəql edərək, c. 6, səh. 17.

19. Mübərrəd, "əl-Kamil" ( Nəhcül-bəlağənin şərhi), c. 2, səh. 47.

20. Məsudi, "Mürucüz-zəhəb", c. 2, səh 301.

21. İbn Əbu Darəm, "Mizan əl-etiqad"dan (c. 21, səh. 139) nəql edərək; "Siyəru əlam ən-nübəla", c. 15, səh. 577.

22. Məhmməd ibn Mukrim, "Müxtəsəru tarixi-Dəməşq", c. 13, səh. 122; İbn Əbil-Hədid, "Şərhi-nəhc-əl-bəlağə, c. 16, səh. 272.

24. Cüveyni, "Fəraid", c. 2, səh. 34.

25. Şəmsəddin Zəhəbi, "Tarixi əl-İslam", c. 3, səh. 117 və 118.

26. Əli ibn Əbu Bəkr Heysəmi, "Məcmə əl-cəvaiz", c. 5, səh. 202 və 203.

27. İbn Həcər Əsqəlani, "Lisan əl-mizan", c. 4, səh. 189

28. Müttəqi Hindi, "Kənz əl-ümmal", c. 5, səh. 274-277 və c. 1, səh. 197.

30. İbn Səlam, "əl-Əmval", səh. 174.

**3. Fərz edək ki, Ömərin yuxarıda qeyd olunan bu rəftarı düzdür. Bu zaman belə bir sual yaranır. Ömər məsummudur ki, onun bu və ya digər əməli bizim üçün dini bir məna kəsb etsin? Hələ bu vaxta qədər Ömərin məsum olduğunu iddia edən olmayıb. Hətta Qəzali belə Ömər və Əbu Bəkrin sözlərinin mötəbər olduğunu hesab edənlərin bu sözünü əsassız prinsip adlandırır.**

**İkinci əsassız pirinsipin isə səhabələrin sözlərinin mötəbər edilməsidir. Bəziləri deyirlər: "Səhabələrin buyurduqları mütləq şəkildə mötəbərdir." Bəzilərinə görə isə səhabələrin sözləri "qiyas" (fiqhdə şəriət hökümlərinin müqayisə metodu ilə əldə edilməsi) üslubu ilə ziddiyyət təşkili etmədikdə mötəbərdir: Bir çoxlarının fikrincə isə yalnız Əbu Bəkr və Ömərin sözləri mötəbərdir. Buna sübut olaraq isə Peyğəmbərin (s) aşağıdakı hədisini əsas götürürlər. O Həzrət (s) buyurmuşdur: "Məndən sonra gələn iki nəfərə iqtida edin"[1]. Bəzilərinin qənaətincə isə əgər raşidi xəlifələrinin buyurduqları biri digərini təsdiq edirsə bu halda mötəbər hesab edilir. Qəzaliyə görə, bütün bu versiyalar yanlışdır. Çünki məsum olmayan, bilərəkdən və ya bilməyərəkdən səhv etmə ehtimalı olan hər hansı bir şəxsin sözü (dini əsas olaraq) mötəbər sayıla bilməz. Onun yanlış yola getməsi ehtimalı olduğu halda sözlərinə necə əsaslanmaq olar?[2]**

---

[1] Peyğəmbərə (s) aid edilən bu hədisdə deyilir: "اقتدوا بالذين بعدی" Məndən sonra gələn iki nəfərə iqtida edin! Bu hədisi "Dirasə əl-fiqhiyyə fi məsaili-xilafiyyə" rədd etmiş, onun sənədini və nəyə aid olduğunu araşdırmışıq.

[2] "Əl-Müstəsfi" c. 1, səh. 260 ; "Dirasətun fiqhiyyətun fi-məsaili xilafiyyə", c. 138

**4. Xəlifənin məlum sözünün Peyğəmbərin (s) əməllərinin əksinə olduğunu təsdiq edən dəlillərdən biri də Peyğəmbərdən (s) nəql edilən rəvayətdir. O Həzrət (s) Ömərə buyurur: "Qadınlarla işin olmasın". Yaxud Aişə deyir: "Allah Ömərə rəhmət etsin! Ya unudar, ya da səhv salardı".**

**Biz bu qədər dəlillərlə kifayətlənirik. Təbii ki, eşitmək və görmək istəyənlər üçün bunlar kifayətdir.**

## SON SÖZ

**Vəhhabiləri tənqid məqsədi ilə İslam alimləri tərəfindən onlarla kitab qələmə alınmışdır. Maraqlı burasıdır ki, bu əsərlərin müəllifləri yalnız imamiyyələr deyillər, əksinə Hənbəli və s.[1] məzhəblərə mənsub görkəmli elm adamları da bu mövzuda çoxsaylı elmi əsərlər yazmışlar. Bu kitabların bəzisini aşağıda qeyd edirik:**

**1. "İbn Teymiyyə, həyatuhu və əqaiduh", Saib Əbd əl-Həmid.**

**2. "Əl-Ayata əl-cəliyyə", Şeyx Mürtəza Kaşif əl-Ğita (vəfat-1931)**

**3. İthafu əhli-zəman bi-əxbari müluki Tunis və əhdil-əman", Əhməd ibn Əbu əz-Ziyaf.**

**4. "Əl-Əcvibətun-Nəcdiyyə ənil-əs`ilətin-Nəcdiyyə", Əbu əl-Əvn Əsfəraini əl-Hənbəli.**

**5. "Əl-Əcvibətun-Nomaniyə-ənil-hindiyyə", Xeyruddin əl-Alusi (vəfat-1317 h.).**

---

[1] Əhli-sünnə alimlərinin bu növ əsərləri qırx kitaba yaxındır. "Buhusun fi miləl vən-nihəl", c. 4, səh. 354.

6. “Əl-Ayatul-bəyyinat fi qəmil-bəd`i vəz-zəlalat, Məhəmməd Hüseyn Kaşif əl-Ğita (vəfat-1373 h.).
7. “Əl-Vəhhabiyyə fil-mizan”, Şeyx Cəfər Sübhani.
8. “Əl-Ərz vət-türbətül-Hüseyniyyə”, Şeyx Məhəmməd Hüseyn Kaşif əl-Ğita (vəfat-1373 h.).
9. “İzahətul-ğəy fir-rəddi əla əbd əl-həy”, Seyid Əli ibn əl-Həsən əl-Əskəri (vəfat-1240 h.).
10. İzahətul-vəsvəsəti ən təqbilil-ə`tab əl-müqəddəsə”, Şeyx Abdullah Maməqani (vəfat-1352 h.).
11. “İzhatul-batil”, Mirzə Məhmməd ibn Əbd əl-Vəhhab Kazimi (vəfat-1351 h.).
12. “Əl-İslam əs-Səudi əl-məmsux”, Seyid Talib əl-Xorasanı.
13. “Əl-Üsul əl-ərbəə fi tərdidil-vəhhabiyyə”, Məhəmməd Həsən Can əs-Sərhindi (vəfat-1346 h.)
14. “İzharül-üquq mim-mən mənə`ət-təvəssülə bin-Nəbi vəl-vəli əs-səduq”.
15. “İtirazatun əla İbn Teymiyyə”, Əhməd ibn İbrahim əl-Hənəfi.
16. “Əl-Əqvalul-mərziyyə fir-rəddi ələl-Vəhhabiyyə”, Əta əl-Kəsəm əd-Dəməşqi.
17. İkmalus-sünnə fi-nəqzi minhac əs-sünnə”, Seyid Məhdi əl-Qəzvini (vəfat-1357 h.).
18. “Kəmal əl-minnə fi nəqzi minhac əs-sünnə”, Siracuddin Həsən ibn İsa əl-Yəməni (vəfat-1353 h.).
19. “Əl-İmammətul-kubra vəl-xilafətul-uzma fi rəddi minhac ibn Teymiyyə”, Seyid Həsən Qəzvini (vəfat-1380 h.).
20. “Əl-İntisar lil-övliya əl-əbrar”, Şeyx Tahir əl-Hənəfii.
21. “Əl-İnsaf vəl-intisaf li-əhlil-həqq minəl-israf” (vəfat-757 h.).

**22. "İhdaul-həqir m`əna hədis əl-Qədir ila əxihi əl-bari`i əl-bəsir", Seyid Mürtəza Xosrovşahı (vafat-1353 h.).**

**23. "Əl-Əvraq əl-Bəğdadiyyə fi-cavabat ən-nəcdiyyə", İbrahim əl-Bağdadi (vəfat-1354 h.).**

**24. "Bühusun məə-əhlis-sünnə vəs-sələfiyyə", Seyid Mehdi ər-Ruhani.**

**25. "Bəraətuş-Şiə min müftərəyatil-vəhhabiyyə, Məhəmməd Əhməd Hamid əs-Sudani.**

**26. "Əl-Bəraətu minəl-ixtilaf", Əli Zeynül-abidin əs-Sudani.**

**27. "Əl-Bərahinus-satiə", Şeyx Sələmətül-əzami (vəfat-1379 h.)**

**28. "Əl-Bəsair", Həmdullah əd-Dacəvi (vəfat-1975)**

**29. "Əl-Məqalat əs-sünniyyə fi-rəddi zəlalati İbn Teymiyyə", Şeyx Əbdullah əl-Hurəri.**

**30. "Tarix əl-Vəhhabiyyə", Əyyub Səbri Paşa.**

**Mənə bu əsəri qələmə alamaq üçün bəxş etdiyi uğura görə uca Tanrıma şükür edirəm. Kitabın ehtiva etdiyi məsələlər uzun zaman Beyrutun Rəsuli-əkrəm (s), əz-Zəhra (s) elm mərkəzlərində, ondan öncə isə Qum şəhərində Əz-Zəhra universitetindəki mühazirələrin məzmunudur. Hansı ki, sonradan toplanaraq kitab şəklinə salınmışdır. Uca Tanrıdan bu kiçik xidmətmizi qəbul etməsini təmənna ediəm!**

Mündəricat

**QƏBİR ÜSTÜNDƏ ÇIRAĞIN YANDIRILMASI ................................................ 3**

**NƏZR ETMƏK VƏ ALLAHDAN QEYRİSİNƏ AND İÇMƏK. ....................................................... 4**

**QƏBİR ÜSTÜNDƏ ÇIRAĞIN YANDIRILMASI ................................................ 5**

**QƏBİR ÜSTÜNDƏ ÇIRAĞIN YANDIRILMASI ................................................. 7**

**NƏZR ETMƏK................................................. 12**

**Allahdan qeyrisinə nəzr vermək ........................ 13**

**NƏZR ETMƏK HAQDA MÜSƏLMANLARIN HƏYAT TƏRZİ ................................................. 19**

**ALLAHDAN QEYRİSİNƏ AND İÇMƏK....... 27**

**ALLAHDAN QEYRİSİNƏ AND İÇMƏK....... 29**

**VƏHHABİLƏRİN NBAXIŞLARININ RƏDDİYYƏSİ ................................................. 31**

**MÖVLUDLARIN KEÇİRİLMƏSİ .................. 43**

**BAYRAMLARIN KEÇİRİLMƏSİ .................. 44**

**VƏHHABİLƏRİN İSTİDLALINDA OLAN NƏQD VƏ İRAD ................................................. 46**

**ALİMLƏRİN HƏYAT TƏRZİ ......................... 51**

**HƏDİS BARƏSİNDƏ OLAN İRAD VƏ MÜNAQİŞƏ................................................. 53**

**HƏDİSİN TƏFSİRİ VƏ ONUN MƏNASININ İZAHI .................**Hata! Yer işareti tanımlanmamış.

**QOHUM VƏ ƏZİZLƏRİN AYRILIĞINA AĞLAMAQ VƏ ƏZA MƏCLİSLƏRİNİN BƏRPA EDİLMƏSİ .....................**Hata! Yer işareti tanımlanmamış.

**PEYĞƏMBƏRİN RƏFTAR VƏ ƏMƏL TƏRZİ .............................**Hata! Yer işareti tanımlanmamış.

**SƏHABƏ VƏ TABEİLƏRİN HƏYAT TƏRZİ .............................**Hata! Yer işareti tanımlanmamış.

**ÖLÜLƏR ÜÇÜN AĞLAMAĞIN HARAM OLMA SƏBƏB ..**Hata! Yer işareti tanımlanmamış.

**SON SÖZ............**Hata! Yer işareti tanımlanmamış.